# Gürcüstanda 40 günlük etirazlar nəticə verəcək?


# Hürriyyət
SİZİN ÜÇÜN QƏZET

№01 (3340) 7 Yanvar / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymət: 60 qəpik


ANA XƏBƏR



## Ramal Aslanov hər iki vəzifəsindən azad olundu

# Vəzifəli şəxslərə qarşı 2,5 milyonluq dələduzluq

## "Birjaçı" Nizami Alişanın "toruna düşənlər" kimlərdir...




GÜNÜN NƏBZİ

Siyasət

## Bakıdan Moskvanın ünvanına növbəti sərt mesaj



İlham Əliyev: "Rusiya dövlət orqanlarının bu addımı bizi hiddətləndirir"

4

Xəbər

## ADP Prezidentin qətiyyətli mövqeyini təqdir edir

Partiya Rusiyanın beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsinin vacibliyini bildirib

2

Cəmiyyət

## Şəhid atası icra başçısından şikayətçidir

"Gədəbəyin icra başçısı Orxan Mürsəlov şikayətçi olduğuma görə məni təngə gətirib"

10

Siyasət

## Petrosyandan şok etiraflar

Sabiq prezident ermənilərin planlarını ifşa etdi

4

Toplum

## Professor oğlundan Prezidentə müraciət

Azad Şükürov: "Bizi bu çıxılmaz vəziyyətdən, hər an evlərimizin başımıza uçma təhlükəsindən xilas edin..."

7

LAYİHƏ

## Narkomaniyadan xilas yolları...



Klinik psixoloq Leyla Məmişova: "Maarifçiliyin genişləndirilməsi və cəzaların sərtləşdirilməsi vacibdir"

11

Ölkə

## AYIBDIR...

(Tıxaclar haqqında ballada)



6

Cəmiyyət

## Direktor ibtidai sinif şagirdini kabinetinə salıb döydü, anası etiraz etdikdə isə...

Gülbəz Rəhimova: "Direktora etiraz etdiyim üçün məktəbin istilik sisteminə baxan həyat yoldaşımı işdən çıxardı"

Ağcabədi rayonu, Xocavənd kənd sakini Rəhimova Gülbəz Möhübbət qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Elm və Təhsil naziri Emin Əmrullayevə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik...

10

Toplum

## Avtomobil almaq istədi, dələduzluqla üzləşdi

Bakı sakini Kəmalə Səfərli avtomobil almaq üçün "ASADZADE SANAN" MMC-yə 27 min manata yaxın pul ödədi, aylardır nə maşınını, nə də pulunu ala bilir

Bakı şəhəri, Nərimanov rayonu, Ələşrəf Əlizadə küçəsi, ev 59, mənzil 75-də qeydiyyatda olan Novruz İbrahim oğlu Səfərov "Hürriyyət"in redaksiyasına şikayət məktubu göndərib. Müharibə və daxili işlər orqanlarının veteranı olan şikayətçi dələduzluqla üzləşib. O, artıq Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Əbülfət Rzayevə də müraciət edb...

7

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№01 (3340) 7 Yanvar / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# Dünyanın 10 ən varlı adamı: Yarısı yəhudilərdir



**2025-ci ilin əvvəlində dünyanın ən varlı on adamı məlum olub. Bu siyahı bir il əvvəl olduğu kimi demək olar ki, eyni qalır. Qeyd edək ki, ənənəvi olaraq hər il Amerikanın nüfuzlu maliyyə və iqtisadi jurnalı "Forbes" tərəfindən tərtib edilir və nəşr olunur.**

Bu siyahıda birinci yerdə keçən il olduğu kimi yenə də "Tesla", "SpaceX" və X (keçmiş Twitter) şirkətlərinin baş direktoru İlon Mask olub.

Onun sərvəti 421,2 milyard dollar təşkil edib (243,7 milyard dollar olan keçən ilin sentyabr ayı ilə müqayisədə təxminən iki dəfə çox).

"Amazon"un qurucusu Ceff Bezos 233,5 milyard dollar sərvətlə ikinci yerdə (keçən ilin sentyabrında 197 milyard dollar idi) qərarlaşıb.

Üçüncü yerdə 209,7 milyard dollar sərvətlə yəhudi əsilli amerikalı milyarder Larri Ellison (ötən ilin sentyabrında o, 174,7 milyard dollarla yalnız beşinci yerdə idi) qərarlaşıb.

Dördüncü yeri Meta (Facebook) baş direktoru və təsisçisi Mark Zukerberq tutur. O, 202,5 milyard dollar sərvəti olan amerikalı yəhudidir (keçən sentyabrda 180,5 milyard dollar idi).

Beşinci yerdə ailəsi ilə birlikdə bir sıra aparıcı lüks brendlərə - "Louis Vuitton", "Dior" və "Tiffany"yə sahib olan Bernar Arnodur. Ümumi kapital 168,4 milyard dollar dəyərində qiymətləndirilir ki, bu da ötən il üçüncü yeri tutduğu 189,4 milyard dollardan aşağıdır.

Altıncı yerdəki başqa bir yəhudi əsilli amerikalı sahibkar Larri Peycin sərvəti sentyabrda 136,1 milyard dollardan 156 milyard dollara yüksəlib (o zaman o, səkkizinci yerdə idi).

Yeddinci yerdə yenə də amerikalı yəhudi olan Sergey Brin 149 milyard dollar sərvətlə qərarlaşıb, ötən ilin sentyabrında 130,4 milyard dolları var idi. Peyclə birlikdə "Google"nu quran Brin də doqquzuncu yerdən yeddinci yerə yüksəlib.

Səkkizinci yerdə Berkshire Hathaway investisiya şirkətinin baş direktoru və sədri 94 yaşlı Uorren Baffet qərarlaşıb. Onun sərvəti 141,7 milyard dollar olub.

"Microsoft"un keçmiş baş direktoru və amerikalı yəhudi Stiv Balmer 124,3 milyard dollar sərvətlə (sentyabrda 122,5 milyard dollar idi) doqquzuncu yerdədir. Balmer də siyahıda bir pillə irəliləyib.

Siyahıda sonuncu yerdə 127,9 milyard dollar sərvəti ilə "Nvidia"nın prezidenti və baş direktoru Censen Huanq gəlir. Onun siyahıya daxil olması "Microsoft"un qurucusu və həmtəsisçisi, keçən il yeddinci yerdə olan Bill Qeytsin getməsinə səbəb olub.

## Əyləncə səhifəsi

# Ancelina Coli Bred Pittdən boşanandan sonra varlanıb

**Ancelina Coli Bred Pittlə boşandıqdan sonra sərvəti 80 milyon dollar artıb. Xarici KİV-lər yazır ki, məşhur aktyorlar evlənməzdən əvvəl nikah müqaviləsi imzalayıblar və boşanma halında evlilikdən əvvəl sahib olduqları sərvəti qoruyacaqları, ümumi əmlakı isə yarıbayarı böləcəkləri barədə razılığa gəliblər.**



Bununla belə, ayrılıq Coli üçün sərfəli olub. Məsələn, 2018-ci ildə Bred keçmiş həyat yoldaşına hazırda yaşadığı Los-Ancelesdəki malikanəni almaq üçün 8 milyon dollar borc verib. Ancelina bu borcu yaxın həftələrdə tam ödəməyi planlaşdırır.Bundan əlavə, 2021-ci ildə aktrisa Uinston Çörçillin çəkdiyi bir tablonu Krisatisbn hərracında 11,5 milyon dollara satıb. "Kutubiyyə məscidinin qülləsi" adlı tablo Bredin hədiyyəsi olub və İkinci Dünya Müharibəsi dövründə Çörçillin çəkdiyi yeganə əsər hesab edilir.

Lakin Colinin ən böyük qazancı 2021-ci ildə olub. O, Provansdakı Miraval şatosundakı payının yarısını rusiyalı milyarder Yuri Şeflerə və onun Tenute del Mondo şirkətinə 64 milyon dollara satıb.

Qeyd etmək lazımdır ki, Bred Ancelinanın bu qərarı ilə razılaşmayıb. Keçmiş ər-arvad arasında əvvəllər ortaq biznes olan bu mülk üzündən məhkəmə mübahisəsi hələ də davam edir.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Mask dünyanın ən böyük komandalarından birini alır?



**Dünyanın ən zəngin insanı olan İlon Maskın, "Liverpul" futbol klubunu almağı planlaşdırdığı iddia edilib.**

Lent.az xarici KİV-ə istinadən xəbər verir ki, Maskın Premyer Liqanın köklü klublarından olan "Liverpul"u 6 milyard funt sterlinq qarşılığında almaq üçün cəhd göstərdiyi bildirilir.

Hazırda Premyer Liqada lider olan "Liverpul"un bazar dəyəri isə 970 milyon avrodur.

# Dünyanın ən yaşlı evli cütlüyü...



**2020-ci il avqustun sonunda Ginnesin Rekordlar Kitabının nümayəndələri dünyanın ən yaşlı evli cütlüyü ilə bağlı qeydi yeniləyiblər. Məlumata görə, rekord sahibləri Julio Mora Tapianın 112 və Valdramina Quinterosun isə 105 yaşı var.**

Cütlük 1941-ci il fevralın 7-də evlənib. Onların nikahı valideynlərindən gizlətməlıəri və müvafiq olaraq ailələrinin xeyir-duasından məhrum olmaları da bir ayrı diqqət çəkir. Toy zamanı bəyin az qala 31, gəlinin isə 26 yaşı vardı. Hər iki rekordçu Ekvadorda yerləşən Kito şəhərindən olan təqaüdçü müəllimlərdir. Qızları Cecilia bildirib ki, yaşlarının çox baxmayaraq, onların aydın düşüncəsi və güclü fiziki sağlamlığı var: "Bu, yəqin ki, həyatları boyu daimi zehni fəaliyyətin nəticəsidir". Ümumilikdə cütlüyün dörd övladı, 11 nəvəsi, 21 nəticəsi və bir kötücəsi var. Julio və Vildramina, birlikdə yaşı 212 olan ABŞ cütlüyü Con və Şarlotte Hendersonun rekordunu geridə qoyublar.

# Ramal Aslanov hər iki vəzifəsindən azad olundu

**Bazar günü DSX mayoru, kikboksinq üzrə Əməkdar məşqçi və Əməkdar idman ustası Fuad Zeynalova hücum insidentinin "sifarişçisi" kimi saxlanılan, kikboksinq üzrə dünya və Avropa çempionu Ramal Aslanov iki vəzifəsindən azad edilib.**



Oxu.az xəbər verir ki, Azərbaycan Kikboksinq Federasiyasında vitse-prezident olan Ramal Aslanov qurumun prezidenti Orxan Əliyevin qərarı ilə vəzifəsindən kənarlaşdırılıb.

Bundan əlavə Ramal Aslanov federasiyanın fəxri prezidenti Adil Əliyevin müavini vəzifəsini də itirib. Xatırladaq ki, A.Əliyev həmçinin Suraxanı rayonunun icra başçısıdır.

Qeyd edək ki, Fuad Zeynalova hücum çəkməkdə şübhəli bilinən Elnur Həmidov, Emil Hümbətov, Elçin Hüseynov, Elvin Məmmədov və Musa Əhmədov da saxlanılıblar.

Əməkdar idman ustası Fuad Zeynalov deyib ki, hadisənin sifarişçisi Azərbaycan Kikboksinq Federasiyasının I vitse-prezidenti Ramal Aslanovdur: "Bu adamla aramızda uzun müddət soyuq münasibətlər olub. Onunla aramızda gərginlik noyabrda Yunanıstanda keçirilən Avropa çempionatında olmuşdu. Bakıya qayıtdıqdan sonra həmin ay 2 dəfə Ramal Aslanov öz dəstəsi ilə mənim evimə hücum çəkib.

Bundan əvvəl başqa adamlarla birlikdə üzərimizə hücum çəkmişdi. Amma sonra federasiya rəhbərliyi ilə birgə görüşümüzdə razılaşdıq ki, gərginliyi aradan qaldıracağıq. Amma görünür ki, o, sözündə durmadı. Ramal Aslanov hazırda 48 saatlıq saxlanılıb".

F.Zeynalov hadisənin təfərrüatını açıqlayıb:

"Təxminən saat 01:00 olardı. Xətaidə yerləşən "Yaban" restoranından çıxıb maşınıma gedirdim. Birdən üstümə 4-5 nəfər hücum çəkdi. Özümü müdafiə etməyə çalışdım. Elə sürətli şəkildə oldu ki, hücum edənlərin kimliyini bilmədim. Ancaq hadisə kameraya düşüb. Polis onları müəyyənləşdirib saxlaya bildi. Özüm xəsarət aldım və başıma tikiş qoyuldu. Mənə hücum edən şəxslərdən yalnız Elnur Həmidovu tanıyıram. Qalanların isə tanımıram. Kamerada da görünür ki, o, adını çəkdiyim restoranın qarşısında uzun müddət gözləyib. Daha sonra mən oradan çıxanda üzərimə hücum çəkiblər. İndi onlar polis tərəfindən saxlanılıb və sabah məhkəməyə çıxacaqlar".

**KƏNAN**

**Allah rəhmət etsin!**

**Professor Eldar Məmmədbəyli və onun əməkdaşları iş yoldaşları Hacıyeva Gülsüm Ənvər qızına və Hacıyev Vasif Fikrət oğluna əzizləri Mustafayeva Tangiz Bəxtiyar qızının vəfatından kədələndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət etsin!**

# ADP Prezidentin qətiyyətli mövqeyini təqdir edir

## Partiya Rusiyanın beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsinin vacibliyini bildirib

**Dünən ADP İdarə Heyəti ilin ilk toplantısını keçirib.**

Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantıda ötən ilin 25 dekabr tarixində Azərbaycan Hava Yollarına məxsus təyyarənin Bakı-Qroznı reysini yerinə yetirərkən Çeçenistan səmasında Rusiyanın Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən vurulmasına görə Qazaxstanın Aktau şəhərinin yaxınlığında 25 nəfər sayda insanın faciəli şəkildə həlak olması ilə nəticələnən qəza faktının araşdırılması ilə bağlı fikir mübadiləsi aparılıb.

İdarə Heyəti baş vermiş qəza ilə bağlı dövlət başçısı İ.Əliyevin qətiyyətli mövqeyini təqdir edib, V.Putinin isə baş vermiş hadisənin "Rusiya ərazisində baş verməsindən dolayı" üzr istəməsini yarımçıq üzrxahlıq kimi dəyərləndirib.

Müzakirələr zamanı qəzaya uğrayan təyyarənin "qara qutu"sunun təyyarənin istehsalçı dövləti olan Braziliyaya aparılmasını müsbət addım kimi dəyərləndirən iştirakçılar "qara qutu"dan əldə olunacaq yekun nəticələr əsasında Rusiyanın beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsinin vacibliyini bildirib.

İdarə Heyəti həmçinin təyyarə qəzası ilə bağlı Azərbaycan dövlət başçısının və Azərbaycan ictimaiyyətinin haqlı narahatçılıqlarına görə son günlər Rusiya media orqanlarında Azərbaycana yönəlik ittihamların yer almasına da diqqət çəkib. Qeyd edilib ki, baş verənlər Rusiyanın məsuliyyətdən yayınmaq cəhdidir, əslində Azərbaycan ərazisində son otuz ildə törədilən terror və hərbi cinayətlərdə Rusiya faktoru yenidən araşdırılmalıdır.

İdarə Heyəti bu ilin ilk günlərində Taarif Şurası tərəfindən ölkədə kommunal xidmətlərdə qiymət artımı ilə bağlı verilmiş qərara da münasibət bildirib. Bu qərarın obyektiv səbəblərlə deyil, subyektiv səbəblərlə bağlı olduğunu bildirən müzakirə iştirakçıları ölkədə durmadan baş verən qiymət artımlarını dövlət idarəçiliyində kadrların yerində olmaması, dövlət orqanlarının əhalinin sosial-iqtisadi rifahının yüksəldilməsi ilə bağlı aydın proqramının yoxluğu, hökumətin iqtisadi siyasətinin yarıtmaz olduğu, ölkədə islahatların aparılmamasının nəticəsi və dövlət büdcəsini xalqın hesabına doldurmaq cəhdi kimi dəyərləndirib. İdarə Heyəti kommunal xidmətlərin artırılmasına adekvat olaraq minimum əmək haqqının və pensiyaların da artırılmasına təkrar baxılmasının vacibliyini bildirib.

İdarə Heyəti Ermənistanın birinci prezidenti olmuş L.Ter-Petrosyanın 1993-cü ildə Ağdamın işğalından sonra "Yerkpara" erməni terrorçu qruplaşması qarşısında etdiyi çıxışın mediada yayılmasına da diqqət çəkib. İdarə Heyəti bu çıxışı ermənilərin bir daha həm Ermənistanda, həm də Qarabağ ərazisində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə etnik təmizləmə apardığının sübutu kimi dəyərləndirib, bu faktların Ermənistanın beynəlxalq hüquq normalarına uyğun olaraq məsuliyyətə cəlb edilməsi üçün ciddi əsaslar olduğunu bildirib.

İdarə Heyəti Beynəlxalq Gimnastika Federasiyasının Azərbaycan Gimnastika Federasiyasını azərbaycanlı gimnast qızların məşqçiləri tərəfindən qeyri-insani rəftara məruz qalmasına görə cəzalandırmasından narahatçılığını ifadə edib və müvafiq dövlət orqanlarını baş vermiş hadisənin araşdırılması istiqamətində ciddi tədbirlər görməyə çağırıb.

İdarə Heyəti son zamanlar qonşu İran dövlətinin dini liderləri tərəfindən Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasına münasibət bildirib, baş verənləri iki qonşu dövlət arasında mövcud olan münasibətlərə növbəti qəsd kimi dəyərləndirib.

**Hazırladı: KƏNAN**

# Vəzifəli şəxslərə qarşı 2,5 milyonluq dələduzluq

## "Birjaçı" Nizami Alişanın "toruna düşənlər" kimlərdir...

**İnvestisiya fəaliyyəti ilə məşğul olan platformada valyuta alqı-satqısı həyata keçirməklə gəlir əldə etmək istəyən üç nəfərin üç milyon dollar pulunu ələ keçirməkdə təqsirləndirilən Nizami Alişanın cinayət işi üzrə məhkəmə hazırlıq prosesi keçirilib.**

Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Aytən Əliyevanın sədrliyi ilə keçirilən prosesdə anket məlumatları dəqiqləşdirilib. Məlum olub ki, Nizami Alişan qanunsuz birja fəaliyyəti ilə məşğul olub.

Sonra təqsirləndirilən şəxsin vəkili Samir İsayev cinayət işinin materialları ilə tanış olmadığından məhkəmə prosesinin təxirə salınmasını istəyib. Hakim məhkəmə prosesini 13 yanvar tarixinə kimi təxirə salıb.

Alişan Nizami Akif oğlu asan pul qazanmaq istəyən şəxslərə özünü səhm və valyuta alqı-satqısı ilə məşğul olan mütəxəssis kimi təqdim edib. Alişanı sosial şəbəkədən tanıyıb ona aldananlar isə - Zeynal Mütəllim oğlu Usubov, Babək Məhəmməd oğlu Məmmədzadə və Yadigar Şibi oğlu İsrafilovdur.





İttihama görə, Alişan Babək Məmmədzadənin 1 milyon 300 min, Zeynal Usubovun 945 min, Yadigar İsrafilovun isə 200 min dollarını ələ keçirib.

Zərərçəkmişlərə dəyən ümumi ziyan 2 milyon 445 min dollar təşkil edir.

Azpolitika.info xəbər verir ki, iş üzrə zərərçəkmiş şəxslərdən biri keçmiş daxili işlər naziri Ramil Usubovun qardaşı oğlu Zeynal Usubovdur. Onun atası Mütəllim Usubov da uzun illər hüquq-mühafizə orqanlarında müxtəlif vəzifələrdə işləyib.

Zeynal Usubovun özü isə əvvəllər prokurorluq orqanlarında işləyib. O, Nərimanov rayon prokurorunun müavini olub. Onun sözügedən platformada 945 min dollar vəsait xərclədiyi bildirilir.

İş üzrə başqa bir diqqətçəkən məqam da var. Belə ki, bu cinayətdə ən çox pul itirən şəxs Babək Məmmədzadədir. Əldə etdiyimiz məlumata görə, Babək "Aztelekom" MMC-nin sabiq baş direktoru Məhəmməd Məmmədovun oğludur.

Məhəmməd Məmmədov 2015-ci ildə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin sabiq Aparat rəhbəri Vidadi Zeynalovla birgə həbs edilmişdi. Milyonlarla mənimsəmədə ittiham edilən Məmmədov şərti cəzaya məhkum edilərək məhkəmə zalından azadlığa buraxılmışdı.

Qeyd edək ki, Alişan Nizamiyə Cinayət Məcəlləsinin 178.4-cü (dələduzluq - xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə də ittiham irəli sürülüb.

**Hazırladı: KƏNAN**

Servantesin vaxtilə dediyi “həyat - şahmat partiyasıdır” fikri həqiqətdirsə, onda hər bir adam bu partiyada oyunun taleyini həll edən yeganə qrossmeysterdir... Və hər bir adamın həyatının dəyəri öz partiyasını nə dərəcədə bacarıqla oynaması ilə ölçülə bilər.





Sərdar CƏLALOĞLU

# Həyatının qrossmeysteri

XX əsrin əvvəllərindən başlayaraq, universal elm yenidən tarix səhnəsinə qayıdır. Bu elmin fərqi təcrübədə tam kimi təqdim olunan idrak obyektini eyni anda hərtərəfli, yəni müxtəlif elm sahələrinin vəhdətində öyrənməkdən ibarətdir. Universallıq dilimizdə müxtəlif cəhətli, hərcəhətli, hərtərəfli, hər şeyi qavrayan, öz sənətinin bütün ixtisaslarına yaxşı bələd olan işçi mənalarını verir.

Yeni dövrdə Azərbaycanda universal elmin tarixi çox da zəngin deyil. Azad Mirzəcanzadənin başçılıq etdiyi universalistlərin siyahısına çox az adamın adını yazmaq olar. Belə alimlərdən biri də geologiya-mineralogiya elmləri doktoru, əməkdar idman və bədən tərbiyəsi xadimi, əməkdar məşqçi, Azərbaycanın maarif əlaçısı, Dünya Şahmat Federasiyasının məktəb və kompüter komissiyalarının üzvü Çapay Əli oglu Sultanovdur. Çapay müəllimin universallıq keyfiyyətinə həm də “Azərbaycanın görkəmli politoloqu” adını da əlavə etmək lazım gəlir. Belə ki, Çapay Sultanov özünün geologiya-minerologiya sahəsindəki elmi və qrossmeysterlik bilgilərini siyasi təcrübəyə tətbiq edərək, birbirindən dəyərli “Neft”, ”İblis damğalı”, ”Yarımçıq qalmış ucuş: ikinci cəhd”, ”Basqın”, ”Bakı neftini itirsəydi, SSRİ və Avropa faşizmə qarşı dura bilərdimi?”, ”XXİ əsrdə neftqaz strategiyası və siyasəti”, ”İmperiyanın son zərbəsi: Bakı 20 yanvar 1990” kimi çox möhtəşəm, yaxın tarixin yerli və qlobal siyasi hadisələrinə həsr edilmiş kitablarını ərsəyə gətirmişdir.

Çapay müəllimin kitablarını oxuduqca, onun nə qədər geniş diapazona malik alim olmasının, nə qədər zəngin biliyə, məlumata və kəskin mühakimə qabiliyyətinə, strukturalist dünyagörüşünə, milli, regional və qlobal çərçivədə baş verənlər arasında məntiqi rabitəni doğru-düzgün müəyyən etdiyinin, həm də bu zaman öz millətinə, xalqına və dövlətinə nə qədər sevgi və canıyananlıq nümayiş etdirdiyinin şahidi olursan.

Məncə, Azərbaycanda Çapay müəllim qədər 20 Yanvar soyqırımına aparan yolu ən incə detalları ilə bilən və dəyərləndirən ikinci bir müəllif tapmaq çətindir. Onun dünya imperiyalarının müqayisəli təhlilində çar və sovet, eləcə də Qorbaçov Rusiyasının Azərbaycanla bağlı imperiya siyasətini aydın və təkzibedilməz faktlarla izahı Azərbaycan politoloji ədəbiyyatına xüsusi töhfə kimi dəyərləndirilməlidir.

Çapay müəllim neftin dünya və regional siyasətdə rolu ilə bağlı həddən artıq çoxlu elmi faktlara söykənərək XIX-XXI əsrlərdə qlobal siyasətin kommunikasiya və karbohidrat yataqları üzərində nəzarət uğrunda mübarizədən ibarət olduğunu çox aydın bir şəkildə sübut edə bilmişdir.

“Əsrimiz kompüter əsridir” fikri Azərbaycanda hamıya hakim olsa da, çox az adam bilir ki, Azərbaycanın kompüterləşdirilməsində Çapay müəllimin müstəsna xidmətləri vardır. Məhz buna görə o, Dünya Şahmat Federasiyasının kompüter komitəsinə üzv seçilmişdir. Məncə, Çapay müəllimin kompüter texnologiyasına xüsusi marağı da bu texnoloji yeniliyin fəlsəfəsinin şahmat fəlsəfəsinə yaxın olmasıdır.

Çapay Sultanovun hər kitabı ilə bağlı bir dissertasiya müdafiə etmək və ya monoqrafiya yazmaq mümkündür. Dəyərinə görə bu kitabları sıralamaq da mümkün deyil, çünki onun bütün kitabları dəyəri və əhəmiyyətinə görə yalnız birinci sıranı təşkil edir. Yüzlərlə kitabın verdiyi bilgiləri bir kitabda ifadə etməsinə görə, əslində Çapay müəllimin 10-15 kitabı bütöv bir kitabxanaya bərabər politoloji bilgi təqdim edir...

Mən Çapay müəllimin kitabları içərisindən hər bir praktik siyasətçi üçün stolüstü kitab olacaq, “Şahmat prizmasının içindən...” adlı kitabı haqda qısa da olsa bəzi fikirlərimi bildirmək istəyirəm.

Əslində, siyasi fəaliyyətin bir “oyun olması”nı Amerikanın məşhur psixoloqu və mütəfəkkiri Bernin, “Oyun oynayan insanlar, insanların oynadığı oyunlar” adlı kitabında elmi şəkildə sübut edilmişdir. Digər bir alim, Niderland tarixçisi və mədəniyyətşünası Yohan Heyzink “Homo Ludens” oynayan adam adlı kitabında tarixin və mədəniyyətin insan oyunlarının nəticəsi kimi meydana çıxdığını geniş və hərtəfəli şəkildə şərh etmişdir. Hətta insanlığın bir tarixi forması “Oyun oynayan insan” kimi təyin edilmişdir. Bütün bunlardan cıxış edib demək olar ki, hər bir insanın həyatı həmin insanın yaşam boyu oynadığı ictimai-siyasi oyunların məcmusundan ibarətdir. Bu baxımdan Çapay müəllimin siyasi fəaliyyətlə şahmat oyunu arasında apardığı paralellik elmi nöqteyi-nəzərdən doğru və düzgündür.

Haşiyə cıxım ki, şahmat və siyasət arasında paralellik aparılması təzə bir ideya deyil. Hətta şahmatın bir



hökmdarın sifarişi ilə kəsf edildiyi, oyunun dövlətlər arasında hakimiyyət uğrunda mübarizəni özündə simvolizə etdiyini, bəlkə də buna görə ən çox hakimiyyət nümayəndələrinin hakimiyyət əzmini nümayiş etdirmək üçün oynadıqları bir oyun olması da bunun politoloji bir oyun olduğunu söyləməyə əsas verir.

Məlumdur ki, Çapay Sultanovdan xeyli qabaq ABŞ siyasətinə uzun illər yön verən, praktik təcrübəsi və nəzəri-siyasi baxışları ilə dünyada məşhur olan Zbiqnev Bjezinskinin “Böyük şahmat taxtası” adlı kitabında qlobal siyasəti şahmat fəlsəfəsinə uygun şərh edərək dünya şöhrəti qazanmış və bununla bir politoloji elm zirvəsini fəth etmişdirg Çapay Sultanov “Şahmat prizmasının içindən...” adlı kitabı ilə sübut etdi ki, elmdə konkret bir zirvə yoxdur. Hər bir fəth edilmiş zirvədən sonra öz fatehini gözləyən başqa zirvələr gəlir. Bu kitabın Bzejinsikinin kitabından fərqi müəllifin qrossmeyster, yəni şahmat idman növünün bütün incəliklərini bilən bir alim olmasıdır.

Şahmat oyunu şahmat taxtasından, şahmat füqurlarından və şahmat oynayan qrossmeysterlərdən ibarətdir. Tarixdə baş verən siyasi hadisələrə məhz şahmat prizmasının içindən baxıldıqda ayrı-ayrı siyasi coğrafiyaların şahmat taxtasına oxşadığı, həmin coğrafiyada iştirak edən dövlətlərin və siyasi liderlərin şahmat füqurlarına uyğun siyasət aparması, regional siyasətə pərdə arxasından yön verən, istqamətləndirən süper güclərin qrossmeysterlər kimi çıxış etdiyini asanlıqla görmək olur. Baxmayaraq ki, analogiya qüsurlu məntiq üsuludur və ciddi elmlər analogiya məntiq üsülündan uzaq dururlar, amma şahmatla siyasət arasındakı əlaqələri analogiya məntiq üsulundan fərqli bir üsulla dərk etmək mümkün deyil və heç bir məntiq üsulu bu əlaqələri izah etmək baxımından belə əlverişli deyil.

Çapay müəllim şahmatın ən qədim intellektual oyun olmasını, özündə idman, elm və incəsənətə xas elementləri birləşdirdiyini qeyd edərək, bu oyunun məntiqinə uyğun ictimai-siyasi həyatın ən müxtəlif və mürəkkəb hadisələrini idrak etməyə imkan verdiyi qənaətinə gəlir. Çapay müəlim yazır: ”Bu oyun şəxsiyyətin formalaşmasına yardım edir, məntiqi düşünməni öyrədir və öz fəaliyyətini planlaşdırmağı, diqqəti cəmləşdirməyi və səbrliliyi öyrədir”. Zatən, yeni dövrün məşhur alman siyasi nəzəriyyəçilərindən Maks Veber də siyasətçi üçün üç əsas keyfiyyət - ehtiras-hadisələrə nüfuz etmək qabiliyyəti (məntiqi düşünmə), göz ölçüsü (planlaşdırma və zamanlama) və məsuliyyət hissini (səbrlilik) müəyyən etmişdir. Buradan aydın olur ki, siyasi işlə şahmat oyununun həddən artıq ortaq tərəfləri vardır və şahmatın məntiqindən çıxış edib siyasi hadisələri planlaşdırmaq, həyata keçirmək, nəticələrini proqnozlaşdırmaq və siyasi mübarizədə qələbəni təmin edəcək taktiki (şahmatda qambit) və strategiya (sahmatda debüt) siyasəti düzğün qurmaq mümkündür.

Çapay müəllimə görə, “şahmat oyunu həm də psixologiya və pedaqogikada elmi tədqiqatları modelləşdirmək, mümkün elementlər arasından ən yaxşısını seçmək imkanı verir”. Psixologiya ilə sıx bağlı olan siyasi fəaliyyəti də məhz buna görə şahmata uyğun modelləşdirmək və konkret situasiya üçün ən məqbul siyasi gedişi seçmək mümkündür.

Kitabın birinci “Siyasi şahmatlar” adlı fəslində Çapay müəllim dünyanın ən nəhəng tanınmış mütəfəkkir və siyasətçilərin şahmat və siyasət arasındakı əlaqə ilə bağlı fikirlərini araşdırır. Və belə qənaətə gəlir ki, şahmatla siyasət, siyasətlə iqtisadiyyat bir-biri ilə sıx bağlı olan faktorlardır. Müəllifin hərb işi ilə şahmatı əlaqələndirməsi də düzgün bir fikirdir. O yazır: “Hərbi leksiondakı “minalı sahələr” ifadəsi şahmatda da yaxşı məlumdur - bu onda olur ki, rəqibə “minalanmış” şahmat sahəsinə girməsi təklif edilir, bundan sonra onun mövqeyi dağılırr”. Həqiqətən, hərb elmi tarixində özündən çox-çox güclü rəqibini istədiyi müstəviyə çəkərək, yalnız bundan sonra onun uzərində möhtəşəm qələbə çalan sərkərdələr haqqında kifayət qədər bilgilər vardır. O, vaxtı ilə Kirovun “erməni dilində danışan hər bir kənd Ermənistana, Azərbaycan dilində danışan hər bir kənd Azərbaycana verilməlidir” fikrini Cənubi Qafqazın rus siyasətçilər tərəfindən necə siyasi minalanmasına nümunə göstərir. Tarixin sonrakı mərhələlərində Qarabağa muxtariyyat statusunun verilməsinin necə təhlükəli siyasi minalanma olduğu son Qarabağ uğrunda çoxillik Ermənistan-Azərbaycan qarşıdurmasında bir daha üzə çıxdı.

Bu fəsildə şahmatın tarixi ilə bağlı verilən məlumatlar da olduqca maraqlıdır. Çapay müəllim yaxşı şahmat oynayan siyasətçilərin həm də yaxşı siyasətçi olması ilə bağlı müxtəlif dövlətlərin və liderlərin tarixindən, xüsusən Azərbaycan və sovet siyasətçilərinin həyatından xeyli maraqlı faktları oxuculara təqdim etməklə, oxucunu ana mövzunun düzgün müəyyən edilməsinə və praktika üçün əhəmiyyətinə inandırmağa çalışır. Müəllif özünün nəzəri mülahizələrini həm də Azərbaycanda baş verən hadisələrlə əlaqələndirdiyindən, hər bir azərbaycanlı üçün bu kitabın əhəmiyyətini bir qədər də artırır.

*(Ardı var)*

# Petrosyandan şok etiraflar

## Sabiq prezident ermənilərin planlarını ifşa etdi

**Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın 23 iyul 1993-cü ildə Qarabağda qətliamlar törədən və mülki azərbaycanlılara qarşı amansız davranan "Yerkrapa" terrorçu qruplaşması qarşısında etdiyi çıxışı önəmli faktları ortaya çıxarıb.**



Eks-prezidentin səsləndirdiyi fikirlər ermənilərin milli strategiyası və hədəflərini anlamaq, onların hansı amallar uğrunda yaşamasını başa düşmək üçün yol xəritəsidir.

Petrosyan cinayətkar dəstəyə "qardaşlarım" deyə səslənir, 1988-ci ildən azərbaycanlılara qarşı silahlı hərəkata başladıqlarını və qətliamlar həyata keçirdiklərini etiraf edir: "Biz 1600 ildir erməni xalqının bacarmadığını həyata keçirdik. Bütün Ermənistanı və Qarabağı digər millətlərdən tamamilə təmizlədik".

Petrosyan 1988-ci ilə qədər Ermənistanda 170 min azərbaycanlının yaşadığını xatırladır. Qeyd edir ki, əgər onlar Ermənistanda qalsaydı, bizim dövlətimiz olmayacaqdı: "Biz onda şimal-şərq rayonlarını, Göyçəni müdafiə edə bilməyəcəkdik. Azərbaycanlılar 3 rayonda çoxluq təşkil edirdilər. Bu, Basarkeçər, Zəngibasar və Amasyadır. Bu problem həll edildi və bu, göydən hədiyyə kimi düşmədi. Bunu biz etdik - milli hərəkat etdi, erməni ümummilli hərəkatı və onun hərbi qanadı, özünümüdafiə batalyonları, bizim "Yerkrapa" dəstəsi".

Ermənistanın keçmiş rəhbəri bildirir ki, Zəngəzurda azərbaycanlıların çoxluq təşkil etməsi "böyük Ermənistan"ın qurulması üçün təhdid idi. O, terror dəstəsinə təriflər yağdırır və "Ermənistan sizin sayənizdə təmizləndi" deyir.

Petrosyan ikinci uğur kimi Azərbaycandan 500 min erməninin köçürülməsini göstərir. O bildirir ki, əgər onlar Azərbaycanda qalsaydı, Ermənistana təzyiq vasitəsinə çevriləcəkdilər. Hayların birinci prezidentinin bu etirafları faşizmin, terrorizmin və terrorçuların maliyələşdirilməsinin bu dövlətin siyasətinin özəyini təşkil etdiyini bir daha sübuta yetirir.

**RƏŞAD**

# Lukaşenko Zelenskidən üzr istəməsi barədə deyilənlərə aydınlıq gətirdi

**Ukrayna lideri Vladimir Zelenskinin Belarus Prezidenti Aleksandr Lukaşenkonun Rusiya-Ukrayna müharibəsinin ilk günlərində ondan üzr isməsi barədə dediklərinə aydınlıq gətirilib.**




BELTA agentliyi xəbər verir ki, Belarus Prezidentinin mətbuat katibi Natalya Eysmont həmin dövrdə Belarusun dövlət başçısının kiçik oğlu Nikolayın emosional fikirlərinə görə liderlər arasında telefon söhbətinin olduğunu təsdiqləyib. O bildirib ki, danışıq zamanı A. Lukaşenko ilk növbədə V. Zelenskiyə bu münaqişənin Ukrayna ərazisində baş verdiyini və çoxsaylı insan ölümlərinə görə məhz onun məsuliyyət daşıdığını xatırladıb: "Buna görə də Prezident Aleksandr Lukaşenko tərəfləri danışıqlar masası arxasına əyləşməyə çağırıb. Nəticədə həm Belarusda, həm də İstanbulda tərəflər arasında üç mərhələli danışıqlar baş tutub" - N. Eysmont belə deyib.

# Bakıdan Moskvanın ünvanına növbəti sərt mesaj

## **İlham Əliyev:** "Rusiya dövlət orqanlarının bu addımı bizi hiddətləndirir"

**Yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirərkən Rusiya ərazində vurulan və bunun nəticəsində qəzaya uğrayan "Embraer 190" tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşüb.**



Görüşdə çıxış edən Prezident İlham Əliyev Kremlin ünvanına yenidən sərt mesajlar səsləndirib: "Dekabrın 25-də Bakı-Qroznı marşrutu ilə uçan AZAL-a məxsus sərnişin təyyarəsi Qroznı şəhərinin yaxınlığında kənar müdaxilə nəticəsində idarəetməni itirib, zədələnib və demək olar ki, idarəolunmaz vəziyyətə salınıb. Məhz pilotların peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı nəticəsində təyyarə Aktau şəhərində qəza enişi edə bilib. Pilotların və bütün ekipaj üzvlərinin fəaliyyəti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib. Mənim Sərəncamımla ekipaj üzvləri ilə vida mərasimindən sonra ekipajın üç üzvü - iki pilot və bir bələdçi Milli Qəhrəman adına layiq görülüb, iki bələdçi isə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib. Əgər pilotlar peşəkarlıq, qəhrəmanlıq göstərməsəydilər, bu qəzada sağ qalan olmazdı.



Bildiyiniz kimi, Dövlət Komissiyası yaradılıb, komissiya fəaliyyət göstərir. Eyni zamanda, mənim göstərişimlə Azərbaycan prokurorluğu cinayət işi açıb. Cinayət işinin ilkin araşdırması dediyim versiyanı bir daha təsdiqləyir. Bu barədə ilkin məlumat bizdə artıq dekabrın 29-da var idi və Azərbaycan Televiziyasına vida mərasimindən sonra verdiyim müsahibədə mən həm öz fikirlərimi, eyni zamanda, istintaqın bizə verdiyi məlumatı Azərbaycan xalqına çatdırmışdım. Bildirmişdim ki, Azərbaycan ictimaiyyəti istintaqın gedişatı ilə müntəzəm surətdə tanış olacaq.

Prokurorluğun işçi qrupları həm Qroznı, həm Aktau şəhərlərinə ezam edilmişdi, orada operativ işlər görmüşdür. Yenə də deyirəm, ilkin məlumatlar var. Biz təbii olaraq istintaqın başa çatmasından sonra tam məlumatı Azərbaycan ictimaiyyətinə çatdıracağıq. Ancaq dekabrın 29-da bildirdiyim bir məqamı bir daha diqqətinizə çatdırmaq istəyirəm. Qroznı şəhərində "kavyor əməliyyatı", yəni, hava sahəsinin bağlanması əməliyyatı təyyarə yerdən vurulandan sonra elan edilib.

Bu, bir daha onu göstərir ki, burada çox ciddi cinayət tərkibli məsələlər var. Adətən hər hansı bir ölkənin hava məkanında təhlükə yaranırsa, dərhal o ölkənin hava məkanı bağlanır. Bu, bütün ölkələrdə var və bunun müxtəlif adları var. Rusiyada buna "kavyor əməliyyatı" deyirlər. Əgər Rusiyanın hava məkanı üçün təhlükə var idisə, dərhal təyyarə kapitanına bu barədə məlumat verilməli idi. Dərhal hava məkanı bağlanmalıydı və təyyarə geri dönməli idi.

Onu da bildirməliyəm ki, baş vermiş qəzadan təqribən 10 gün əvvəl oxşar hadisə Qroznı şəhərinin yaxınlığında baş vermişdi. AZAL-a məxsus təyyarə yarı yoldan geri dönmüşdü. Nə üçün bu dəfə təyyarə ekipajına xəbərdarlıq edilməmişdi? Bunu təbii olaraq istintaq göstərəcək. Mən bir daha demək istəyirəm ki, bizdə olan məlumat həqiqətə əsaslanır. Rusiyanın dövlət qurumları tərəfindən bu hadisəni örtbasdır etmək və cəfəng versiyalar üzərində dayanmaq cəhdi bizdə həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur. Günahsız insanlar həlak olublar. Yenə də deyirəm, məhz pilotların və ekipaj üzvlərinin qəhrəmanlığı nəticəsində 30-a yaxın insan bu qəzadan sağ çıxıb, onların bir neçəsi ağır yaralanmışdır. Onu da bildirməliyəm ki, qəza nəticəsində ən çox həlak olan Azərbaycan vətəndaşlarıdır. Eyni zamanda, Rusiya və Qazaxıstan vətəndaşları da həlak olublar. Qırğızıstan vətəndaşları isə yaralanmışdır".

## "Təyyarə yerdən açılan atəş nəticəsində zədələnib... Cinayət işinin ilkin araşdırması dediyim versiyanı bir daha təsdiqləyir"

### "Görünür, rəsmi Moskvanın kompensasiya ödəmək və cinayətkarları cəzalandırmaq fikri yoxdur"

Politoloq Elxan Şahinoğlu prezident İlham Əliyevin Moskvanın ünvanına səsləndirdiyi mesajları şərh edib. "Dövlət başçısı İlham Əliyev artıq ikinci dəfədir ki, Azərbaycanın sərnişin təyyarəsinin vurulmasıyla bağlı Rusiyanın günahkar olduğunu və bu dövlətin üzərinə düşəni etmədiyini bildirib. Kremldən səs çıxmır. Görünür, rəsmi Moskvanın təyyarə qəzasında ölənlərin ailələrinə kompensasiya ödəmək və cinayətkarları cəzalandırmaq fikri yoxdur", - deyən politoloq hesab edir ki, gözlənilənlərin əksinə olaraq, son günlər Kreml nəzarət etdiyi informasiya şəbəklərini Azərbaycan əleyhinə təbliğata yönəldib.

E.Şahinoğlunun qənaətincə, Rusiyanın təyyarəmizi vurmasından dərhal sonra İrandakı mühafizəkar dairələrin də Azərbaycan əleyhinə təbliğata başlamaları təsadüfi deyil: "Deyəsən, Moskva-Tehran cütlüyü Suriyada məğlubiyyətin əvəzini Türkiyə və Azərbaycandan çıxmağa çalışırlar. İran Prezidenti Məsud Pezeşkianın bu ay Moskvaya səfərini və rusiyalı həmkarı Vladimir Putinlə imzalayacağı strateji əməkdaşlıq haqqında sazişi diqqətlə analiz etməli olacağıq. Bu iki dövləti yalnız Qərb əleyhinə ortaq siyasət birləşdirmir, Rusiya və İran ətraflarındakı dövlətlərin müstəqil siyasətlərinə qarşı da birgə mübarizə tədbirlərini gücləndirəcəklər".

Politoloq deyib ki, Vladimir Putin İlham Əliyevin "kompensasiya ödəyin və cinayətkarları cəzalandırın" tələbini yerinə yetirməyəcəksə, il ərzində iki ölkə arasında münasibətlərin gərginləşməsinə hazır olmalıyıq: "İranın mühafizəkar dairələri də bizdən əl çəkən deyillər. Belə vəziyyətdə Türkiyə ilə koordinasiyanı gücləndirməyə ehtiyac yaranacaq".

**Hazırladı: KƏNAN**

# Gürcüstanda 40 günlük etirazlar nəticə verəcək?

**2025-ci ilin 5 yanvar tarixində Tiflisdə və Gürcüstanın iri şəhərlərində hökumət əleyhinə etiraz aksiyaları davam etdirilib. Bəlli olduğu kimi, aksiya iştirakçıları yeni parlament seçkilərinin keçirilməsini tələb edirlər.**




## Mixeil Kavelaşvili xalqın prezidenti olacaq, yoxsa "Gürcü arzusu"nun?..

Xatırladaq ki, Gürcüstanda davamlı etirazlar baş nazir İrakli Kobaxidzenin 2024-cü il noyabrın 28-də ölkənin Avropa İttifaqına üzvlüyü ilə bağlı danışıqların başlanmasına baxılmasının 2028-ci ilə qədər dayandırılması qərarını elan etməsindən sonra başlayıb.

Aksiyalar zamanı hüquq-mühafizə orqanlarının əməkdaşları bir neçə yüz nəfəri saxlayıb. Etirazın 38-ci günü etirazçılar Kutaisi şəhərinin mərkəzində, Batumidə Konstitusiya Məhkəməsinin qarşısına, Zuqdididə və paytxat Tiflisdə parlament binasının qarşısına toplaşıblar. KİV-lərin verdiyi məlumata görə, Gürcüstan parlamentinə bitişik Rustaveli prospekti hər gün nümayişçilər tərəfindən bağlanır. Minlərlə aksiyaçı yeni ili elə meydandaca qeyd edib. Prospektdə Gürcüstan bayrağının rənglərində bir neçə yüz metr uzunluğunda yeni il süfrəsi açılıb. Etirazçıların tələbi də dəyişməz olaraq qalır - yeni parlament seçkilərinin təyin edilməsi.

Lakin etirazların arasıkəsilmədən davam etdiyinə baxmayaraq, hökumətin necə deyərlər "tükü də tərpənmir". Görünür, bu səbəbdən də əksər ekspertlər yanvarda etirazçıların sayının azalacağını düşünürlər.

Beləliklə, dekabrın 29-da Mixeil Kavelaşvili and içərək, rəsmi olaraq Gürcüstan prezidenti kimi fəaliyyətə başladı. Və elə həmin gün - İnauqurasiya günü yeni prezident Kavelaşvili etiraz aksiyalarında maska ??taxmağı və lazerdən istifadəni qadağan edən qanunu imzaladı.

Gürcüstan parlamentinin dekabrın 13-də təsdiq etdiyi "Yığıncaqlar və nümayişlər haqqında" qanuna edilən dəyişikliklərə əsasən, "üzü maska ??və ya digər vasitələrlə örtmək" qadağandır. Qadağan olunmuş əşyalar siyahısına həmçinin etirazçıların tez-tez polis əməkdaşlarının gözünə və müşahidə kameralarına saldığı pirotexniki vasitələr və lazerlər də daxildir.

Mixeil Kavelaşvilinin andiçmə mərasimindən sonra sabiq prezident Salome Zurabişvili Orbeliani sarayını tərk etdi. O bildirdi ki, ölkəni xilas etmək üçün biznes nümayəndələri, dövlət rəsmiləri, etirazçı gənclər və rayon sakinləri ilə görüşlərini, həmçinin xaricə səfərlərini davam etdirəcək.

Baş verənlərlə yanaşı, 2024-cü ilin noyabr-dekabr aylarında etiraz aksiyalarında iştirak etdiyi iddiası ilə 25 nəfər əcnəbi Gürcüstandan çıxarıldı. Eləcə də 2024-cü ildə Gürcüstan rəsmiləri, iş adamları və hakimlər Qərbin sanksiya siyahısına salındı. "Gürcü Arzusu"nun "xaç atası" Bidzina İvanişvili, baş nazir İrakli Kobaxidze, DİN rəhbəri Vaxtanq Qomelauri və başqaları Qərb ölkələrindən maliyyə və ölkəyə giriş sanksiyalarına məruz qalıblar. Almaniya, Fransa və Polşa gürcü diplomatları üçün vizasız rejimi "Avrointeqrasiyadan çıxması" səbəbindən ləğv edib. "Bununla bağlı, biz Aİ-nin Gürcüstanın diplomatik və xidməti pasport sahibləri üçün vizasız rejimin ləğvi ilə bağlı qərarını qüvvəyə mindirəcəyik", - Fransa, Almaniya, Polşa xarici işlər nazirlərinin birgə bəyanatında deyilir. Bununla yanaşı, onlar həm Aİ səviyyəsində, həm də bu ölkələr daxilində Gürcüstan hakimiyyətinə qarşı başqa tədbirlər tətbiq etməyi düşünürlər.

Amma Gürcüstanla bağlı Avropada fikir ayrılığı yaranıb. Avropa parlamentarisi Riçard Kols yanvarın 8-10-da ATƏT Parlament Assambleyasının prezidentinin nümayəndə heyəti ilə Gürcüstana səfər edəcəyini bildirərək, bunu "fəlakətli", Piu Kaumu isə "zəif lider" adlandırıb.

Daha sonra planlaşdırılan səfəri Bundestaqın deputatı Maykl Rot tənqid edərək, bunu "ciddi səhv" adlandırıb və "Gürcüstan hökumətini və parlamentini legitimləşdirməməyə" çağırıb. Təbii ki, 2024-cü il parlament seçkilərinin nəticələrini tanımayan Gürcüstanın müxalifət partiyaları da kənarda qalmayıb.

> Aİ-nin sanknsiyalarından başqa, ABŞ da Gürcüstana qarşı yeni sanksiyalar hazırlayır. Vaşqinton "demokratiyanı sarsıdan" gürcü siyasətçilərinə qarşı sanksiyaların tətbiqinə imkan verən "MEGOBARI Aktı"nı yenidən qeydiyyata almağı planlaşdırır, həmçinin Gürcüstanda parlament seçkilərinin nəticələrinin tanınmaması təşəbbüsünü irəli sürür. Tennessi ştatından demokrat Stiven Koen və Cənubi Karolinadan respublikaçı Co Vilson bildiriblər ki, qanun layihələri yeni Konqresə ilk günündə təqdim olunacaq...

Kauma göndərdikləri məktubda onlar Gürcüstan yeni seçkilərə hazırlaşmağa başlayana qədər səfəri təxirə salmağa çağırıblar.

Aİ-nin sanknsiyalarından başqa, ABŞ da Gürcüstana qarşı yeni sanksiyalar hazırlayır. Vaşqinton "demokratiyanı sarsıdan" gürcü siyasətçilərinə qarşı sanksiyaların tətbiqinə imkan verən "MEGOBARI Aktı"nı yenidən qeydiyyata almağı planlaşdırır, həmçinin Gürcüstanda parlament seçkilərinin nəticələrinin tanınmaması təşəbbüsünü irəli sürür. Tennessi ştatından demokrat Stiven Koen və Cənubi Karolinadan respublikaçı Co Vilson bildiriblər ki, qanun layihələri yeni Konqresə ilk günündə təqdim olunacaq.

Gürcü hakimiyyəti isə bunu ABŞ-ın Gürcüstanda təxribat hazırlaması kimi qəbul edir. Bu kontekstdə Vaşinqtonun Avropa Siyasətinin Təhlili Mərkəzinin aparıcı hərbi eksperti Ben Hodcesin (2014-2017-ci illərdə ABŞ silahlı qüvvələrinin Avropadakı keçmiş baş komandanı) "Amerikanın Səsi"nə verdiyi müsahibəsini gözdən keçirmək olar.

"Gürcüstan prezidentinə (Salome Zurabişviliyə) nə qədər heyran olduğumu deməliyəm. O, Gürcüstanın qeyri-legitim hökumətinə qarşı mübarizədə cəsarət, güc və qətiyyət nümunəsidir. Təbii ki, mən də narahatam ki, nə vaxtsa kimsə ona zərər verər... Əgər ona nəsə olsa, cavab verilməlidir. Təəssüf ki, hazırda bütün ölkələrdə çox şey baş verir", deyə Hodces bildirib.

Qeyd etdiyimiz kimi, sabiq prezident Salome Zurabişvili Gürcüstanın qanuni yolla seçilmiş rəhbərliyi üçün heç bir təhlükə yaratmır. O, Orbeliani sarayını tərk etdi və getdikcə daha çox insan mitinqləri davam etdirməyə çağırır.

Bəs insanların sarsılmayan əzmlə 2024-cü ilin noyabrından bəri davam edən etiraz aksiyaları onların seçici iradəsini əks etdirməyən "Gürcü arzusu"nun hakimiyyəti itirməsinə niyə təkan verə bilmir? Əgər məsələ sadəcə xalqın iradəsindədirsə, niyə gürcü cəmiyyətinin demokratiya iradəsi Bidzinanın partiyasına güc gələ bilmir? Hərçənd, aksiyaların gedişində bir sıra dövlət rəsmiləri vəzifələrindən könüllü istefa verdilər...

Görünür, ümidini Trampın gəlişinə bağlamış Rusiya hakimiyyəti kimi, Gürcüstan hakimiyyəti də ABŞ-ın yeni prezidentinin andiçmə mərasimindən sonra Vaşinqtonla münasibətlərin yenidən qurulacağını gözləyir. Bu barədə "Xalqın Gücü" partiyasından olan parlament üzvü Quram Maçaraşvili də bildirib. O deyib ki, Gürcüstan yeni prezident Donald Trampın andiçmə mərasimindən sonra yaxın həftələrdə ABŞ-la münasibətlərə yenidən baxılmasını gözləyir.

"Biz dəfələrlə demişik ki, biz Amerika və Avropa İttifaqı ilə tərəfdaşlığı bərpa etməyə hazırıq. Önümüzdəki günlərdə və həftələrdə mütləq münasibətlərin yenidən başlayacağına əminik", deyə Quram Maçaraşvili ifadə edib.

Odur ki, indi Gürücstanda "sıfırlama siyasəti" bu anlama gəlir:

- Gürcüstanın bütün səviyyələrdə "qanuni seçilmiş" hakimiyyət orqanlarının tanınması;
- Gürcüstan rəhbərliyinin "suveren" qərarlarına hörmət;
- Müxalifət qüvvələrini dəstəkləməkdən imtina.

Amma Tramp gözlənilən yumşalmaya gedəcəkmi? Başı Ukraynada müharibəyə qarışan Vaşqinton gürcü toplumunun Qərbə inteqrasiyasına dəstək ortaya qoyacaqmı? Yoxsa "Gürcü arzusu"nun müxalifətə və 40 günə yaxınlaşan etiraz aksiyalarına saymazyana münasibətini gözməməzliyə vuracaq? Məsələn, hansısa mənfəət və maraq uzlaşması burada aparıcı rol oynayacaqmı? Axı Tramp özü də Bidzina İvanişvili kimi iş adamıdır. İş adamları üçün isə əsas prioritet maddi maraqlardır, digər dəyərlər isə adətən arxa plana keçir.

Hər halda bunun bir daha belə olub-olmayacağını Trampın prezident kimi rəsmi fəaliyyətə başlamasından sonra ilk öncə Rusiya-Ukrayna məsələsinə baxışından görmək mümkün olacaq.

**Ülviyyə ŞÜKÜROVA**



Eldəniz QULİYEV

# AYIBDIR...

## (Tıxaclar haqqında ballada)

Vallah, camaatımız naşükürdü...

Başına min oyun açırlar, min hoqqaya tuş gəlir...amma hələ də "əyrini düzdən, çeşməyi gözdən" seçib-ayıra bilmir...

Bəlkə elə buna görədir ki, məmləkətin analoqsuz inkişafını, hörmətli-izzətli hökumətimizin misilsiz fəaliyyəti və əvəzsiz humanistliyini görmür, ya görmək istəmir. Qəsdən! Eyvah!

Guya, hökumət müəllim öz vətəndaşlarının mənafeyinə diqqət yetirmir, hüquqlarını qorumaqdan vaz keçir...

Belə deyil. Qətiyyən belə deyil! Qoruyur, özü də, gözbəbəyi kimi.

Misal üçün, gözünüzə su verin və görün ki, hökumət gündən-günə çiçəklənən, gül kimi paytaxtımızda bir, yaxud bir neçə velosipedçinin hüquq və azadlığını hansı həssaslıqla qoruyur!.. Əsim-əsim əsir ki, amanın günüdü, birdən, o bir, yaxud bir neçə nəfərin hüququ-zadı pozular, - rüsvayi-cahan olarıq!.. Təki saatda bir, yaxud bir neçə dəfə, xüsusi ayrılmış zolaqlardan vızıltı-mızıltıyla keçən bir cüt-iki tək velosipedçi-skuterçi qaqaşlarımız narazı qalmasınlar...

Ucu-bucağı görünməyən tıxacda qovrulan min, yaxud bir neçə min sürücü və sərnişinin stressdən dirsəyini dişləməsi isə... əlbəttə ki, boş şeydi!.. Onların hüququ, haqqı və azadlığı pozulursa, pozulsun dəə, - noolasıdı ki?.. Burda nə var ki, üfürüb şişirdirsiz?!.

Ya, bu zəhrimar zolaqlar, şahmar ilan kimi yol kənarında yerləşən yüz, yaxud bir neçə yüz marketin, dükan-bazarın, iaşə obyektlərinin boynuna sarılıb onları sıxıb-boğursa, qismətini-ruzisini, bir loxma çörəyini kəsirsə... yəni qarşısında maşın saxlamaq, düşüb alış-veriş eləmək - "şappadan"-analoqsuz cərimə şapalağıyla nəticələnirsə... Pahh, noolsun, burda nə matah bir şey var ki?..

Orta və kiçik sahibkarların haqqı, hüququ, azadlığı, lap belə, can sağlığı (pərakəndə və "optovoy" şəkildə), pozulursa, pozulsun də! Lap belə, dünəndən pozulsun, lap belə, cəhənnəmə pozulsun! Belə olanda, bəlkə kiminsə üzüyünün qaşı düşür, ya kiminsə mısına dəyir?! Ha-ha!

Başa düşün, onlara dəyən zərər, ya zərbələr, əslində, zərbə yox, sığaldı, sığal. Belə cılız-mılız məsələlərə görə, naqdauntu nakaut kimi qələmə verməyin, camaatı çaşdırmayın...



> Baxın, yaxşı baxın! Gözünüzü bərəldib də baxın. Görün, necə də gözoxşayan mənzərədi: fal-fal, hissə-hissə, parça-parça, "kusok-kusok", ensiz-ensiz, incə-incə doğranıb-dilimlənmiş müasir tipli, avropafason yollar! Bir tərəfdə qəşəng-qəşəng avtobus yolu, bir tərəfdə gözəl-gözəl velosiped zolaqları, özgə bir tərəfdə göyçək- göyçək parkovkalar...

Ağlınıza-ağzınıza nə gəldi zəvziyirsiz, deyinirsiz, donquldanırsınız...

Deyirsiz: "Bu gün hakimiyyətdə oturanlar müştəriyə (yəni xalqa), buğda göstərib arpa satan alverçiyə oxşayır!.." Sonra, dübarə ərz eləyirsiz ki, guya: "Məmur topasının papaqları başlarından bahadı!"

Ağıllı olun, etməyin, eləməyin, olmaz! Harda gəldi, yava-yava danışmayın. Bax, mən ölü, siz diri, axırda kimlərinsə, daha doğrusu kiminsə sərt qəzəbinə gələcəksiz. Və o "kimsə" hirslənib, - dadaanq!"-yumruğunu stola çırpacaq və bu dəfə qayıdıb şəhərin yollarını qapadacaq - eynən ölkənin quru yolları kimi!..

Nə edəcəksiz?.. Çar-naçar, öz başınıza fırlanmaqdan savayı özgə bir yol, irz qalacaqmı? Yoxsa, elə fırlana-fırlana başınız gicəllənəcək, yıxılıb xosunbay olacaqsız?!..

Ən yaxşı halda, hörmətli cənab Kimsə, qeyzlənib sizləri, (hələ ki, ixtiyarınızda olan) bir, yaxud bir necə işlək zolaqdan da məhrum edəcək. Üstəlik, yolun tən ortasına təyyərə enişləri üçün bir cüt əlavə zolaq ayıracaq...vot!.. Belə eləsə, tıxaclar qaxaca dönüb hər birimizin başına - tappa-tapp - yağış təki yağmayacaqmı?...

Bə onda neynəyəcəksiniz, həə?

Baxın, yaxşı baxın! Gözünüzü bərəldib də baxın. Görün, necə də gözoxşayan mənzərədi: fal-fal, hissə-hissə, parça-parça, "kusok-kusok", ensiz-ensiz, incə-incə doğranıb-dilimlənmiş müasir tipli, avropafason yollar! Bir tərəfdə qəşəng-qəşəng avtobus yolu, bir tərəfdə gözəl-gözəl velosiped zolaqları, özgə bir tərəfdə göyçək- göyçək parkovkalar... Dörd bir tərəfdə, yəni aşağıda, yuxarıda, sağda, solda isə, əsl tapmacaya oxşayan yol nişanları... Ortada da, əlbəttə ki, səbrsiz və abırsız sevgililər təki mələşə-mələşə bir-birinə sarmaşıb duran, quyruğu-başı görünməyən avtomobil sıraları... Pəh-pəh! Bundan da möhtəşəm, bundan da ecazkar mənzərə olarmı?.. Lap Salvador Dalinin sürrealist rəsm əsərlərini xatırladır... Bunun nəyi və harası pisdi ki, ay avamlar, ay kütbeyinlər?!

Kimsə burda durub mənə beynəlxalq hüquqdan, dövlətin öhdəliyindən, insanların asudə və azad yaşaması haqlarındanfilandan nağıllar danışmasın...

Bunlara çoxdan bir "quş" qoyulub və qoyulur,- özü də dünyanın hər yerində!..

Sizsə, bu qəliz mətləbləri anlamaq, qanmaq əvəzinə, qışqırıb haray qoparır, fəryad çəkirsiz... Ki, "ay aman, qoyma gəldi!.." -bu andır tıxaclar elə bu hakimiyyətin özü kimi, balıq sümüyünə dönüb keçib boğazımıza..." Hətta, hərdən ağız bahəm eləyib deyirsiz ki: "Tıxaclar təkcə maşın yollarıyla bitsəydi nə vardı ki... Cərimə tıxacları, qiymət artımı, dolanışıq tıxacları, ədalətsizlik, hüquqsusluq, özbaşınalıq, yalançılıq, saxtakarlıq, riyakarlıq tıxacları və sairələr ta xirtdəyə çıxıb, təngə gətirib bizi!.."

Hə, noolsun?.. Bunları deməyin nə mənası var?! Çığırbağır etməyinizin bir xeyri olurmu? Yox! Bununla nəsə düzəlir, nəsə öz həllini tapırmı? Əlbəttə ki, yox!

Bax, bəri başdan deyirəm, kimsə bu YOXun həmqafiyəsinə düşmək istəmirsə, onda dediklərimi sırğa eləyib qulağından asmalıdır:

- hamı qaxılıb oturduğu yerində oturmalı;
- mümkün qədər dilini dinməz yerinə qoymalı;
- susmalı, lal, kar və kor olmalıdır, vsyo!

Mətləbdən uzaqlaşdıq, deyəsən... Sözümün canı-cövhəri budur, o ayrı söhbət və naftalin iyi verən məsələdir ki, yuxarılarda qəbul olunan bütün qayda-qanunlar, fərmanlar, sərəncamlar, əslində (və ya guya), aşağıdakıların, yəni sadə məmləkət əhlinin rahatlığı, əminamanlığı və maddi-mənəvi rifahı üçün edilir. Amma...

...amma e-e...şeytana lənət!.. Belə mütəqəlqəl məsələlər sizlərin başı üçün deyil... vallahi, heç mənim də girdiyim kol deyil...

Bircə ounu dəqiq bilirəm ki, bu zamanədə başını salamat saxlamaq üçün gərək, "az aşım-ağrımaz başım" deyəsən və çox şeyləri görməzdən gələsən... çünki korlar məmləkətində görmək... çoox ciddi xəstəlik sayılır!..

Nəysə və xülaseyi-kəlam, milçəkdən fil, ya da ağcaqanaddan öküz düzəltmək çox xətalı məsələlərdi...

Çalışın, "yaxşını pisdən, tüstünü hisdən" seçə biləsiz...

Naşükür-filan da olmayın və belə kiçik-miçik şeylərə də...zad eləməyin!..

Dünya bizə baxır...ayıbdır!..

# Avtomobil almaq istədi, dələduzluqla üzləşdi

## Bakı sakini Kəmalə Səfərli avtomobil almaq üçün "ASADZADE SANAN" MMC-yə 27 min manata yaxın pul ödədi, aylardır nə maşınını, nə də pulunu ala bilir



**Bakı şəhəri, Nərimanov rayonu, Ələşrəf Əlizadə küçəsi, ev 59, mənzil 75-də qeydiyyatda olan Novruz İbrahim oğlu Səfərov "Hürriyyət"in redaksiyasına şikayət məktubu göndərib. Müharibə və daxili işlər orqanlarının veteranı olan şikayətçi dələduzluqla üzləşib. O, artıq Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Əbülfət Rzayevə də müraciət edb. Həmin müraciəti olduğu kimi təqdim edirik:**

**"Cənab Əbülfət Razayev!**

Məlumat üçün bildirirəm ki, özüm müharibə iştirakçısıyam, daxili işlər orqanlarının veteranıyam.

Səhhətimlə əlaqədar olaraq, avtomobil almaq üçün qızım - Səfərli Kəmalə 31 avqust 2024-cü il tarixində öncədən "RE-CHARGE", hazırda isə "ASADZADE SANAN" adlanan şirkətlə müqavilə bağlayıb. Müqaviləyə sözügedən MMC-nin səlahiyyətli nümayəndəsi Əsədzadə Sənan Yavər oğlu və qızım tərəfindən imza atılıb. Müqavilədə xaricdən sifariş olunan avtomobilin dəyəri 15750 ABŞ dolları (təxminən 26 775 AZN) göstərilib və həmin vəsait 03.09.2024-cü il tarixində bank vasitəsi ilə tam şəkildə qarşı tərəfə ödənilib.

Qeyd edim ki, müqaviləyə əsasən, xidmətlərin göstərilməsi 60 təqvim günü müddətində həyata keçirilir, əgər avtomobilin təhvil verilməsi qeyd olunan tarixi keçərsə, ödənilən məbləğ geri qaytarılır.

Lakin Sizə ünvanladığımız müraciətin yazıldığı günə - 25.12.2024-cü il tarixə qədər, yəni 3 aydan çox vaxt keçməsinə baxmayaraq, sifariş olunan avtomobil bizə təhvil verilməyib. Üstəlik, şirkətin əməkdaşları avtomobilin təhvil verilməməsinə dair ziddiyyətli və əsassız məlumatlar təqdim edir, müxtəlif "səbəblərə" istinad edirlər:

- avtomobilin guya yolda olduğu bildirilir;
- sərhəddə problemlər olduğu deyilir;
- texniki nasazlıqlara görə avtomobilin zavoda qaytarıldığı iddia edilir;
- iddia olunur k, sifariş edilən avtomobil satışda mövcud deyil, bu səbəbdən başqa avtomobil sifariş edə bilərik və s.

Təbii ki, bu şirkət öhdəliklərini yerinə yetirmədiyinə görə biz, sifarişçi tərəf olaraq, ödədiyimiz məbləğin geri qaytarılmasını tələb etdik. Nəticədə, 16 noyabr 2024-cü il tarixində şirkətlə aramızda razılıq əldə olundu ki, ödədiyimiz məbləğ - 15750 ABŞ dolları (təxminən 26 775 AZN) 14 gün ərzində geri qaytarılacaq.

Buna baxmayaraq, şirkət hələ də ödədiyimiz vəsaiti geri qaytarmağı rədd edir. Əksinə, avtomibilin guya yolda olduğunu və gözləməli olduğumuzu bildirirlər. Lakin bununla bağlı heç bir sübut təqdim etmirlər ki, biz onların saözlərinə inanaraq, bir müddət də gözləyək.

Bundan əlavə, digər müştərilərin də bu şirkətlə bağlı eyni problemlərlə üzləşdiyi və ödənilən pulların geri qaytarılmadığı barədə məlumatlar mövcuddur. Bu da bizdə şübhələr doğurur. Belə ki, sözügedən şirkətin dələduzluqla məşğul olduğu haqda qənaət formalaşdırır. Hansı ki, şirkətin bu cür fəaliyyəti istehlakçıların hüquqlarını kobud şəkildə pozur, onları aldadır və həm maddi, həm də mənəvi zərərə səbəb olur.

Bundan başqa, onu da qeyd etmək istərdim ki, Əsədzadə Sənan Yavər oğlu şəxsində təmsil olunan, öncədən "RE-CHARGE", hazırda "ASADZADE SANAN" adını daşıyan bu şirkət bir neçə şəxsə eyni bəhanələrlə külli miqdarda ziyan vuraraq, dələduzluq edibr.

**Cənab Əbülfət Razayev!**

Sizdən xahiş edirəm ki, yuxarıda qeyd olunanları nəzərə alaraq, öncədən "RE-CHARGE", hazırda "ASADZADE SANAN" adını daşıyan şirkətin rəhbəri Əsədzadə Sənan Yavər oğlu barəsində qanuna müvafiq tədbirlər görülməsi barədə tapşırıq verəsiniz.

Onu da qeyd edim ki, hazırda mənimlə eyni vəziyyətdə başqa iki nəfər də var".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**



# Professor oğlundan Prezidentə müraciət

## Azad Şükürov: "Bizi bu çıxılmaz vəziyyətdən, hər an evlərimizin başımıza uçma təhlükəsindən xilas edin..."

**Bakı şəhəri, Səbail rayonu, 20-ci sahə, Badamdar yolu küçəsi 28 ünvanında yaşayan Şükürov Azad Sadiq oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və Baş nazir Əli Əsədova müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

"Mən, Azərbaycan Respublikası Bədən Tərbiyə Akademiyasının məzunu, veteran idmançı, idman ustasıyam, vaxtilə dövlət qulluğunda xidmət etmişəm.

Atam Şükürov Sadiq Cəfər oğlu Filologiya elmləri doktoru, professor olub.

Mən Bakı şəhəri, Səbail rayonu 20-ci sahə, Badamdar yolu küçəsi 28, 162 nömrəli məktəbin arxa tərəfində yerləşən qəzalı vəziyyətdə olan evdə yaşayıram. Həmin məktəblə bizim evi ayıran hasarın arasında 1,5 metr məsafə var. Evlərin məktəbin həyətinə uçma təhlükəsi olduğu üçün burada hər an ölüm hadisəsi də baş verə bilər. Yağış, qar yağan zaman evlərimizin yerləşdiyi torpaq sahəsində sürüşmə baş verir. Atmosfer çöküntülərinin təsiri nəticəsində yaşadığımız evin divarlarında çoxlu sayda çatlar yaranıb.

Bu barədə müvafiq dövlət orqanlarına, o cümlədən Fövqəladə Hallar Nazirliyinə, Səbail rayon İcra Hakimiyyətinə məlumat vermişik. Bunun əsasında evlərimizə baxış keçirilmiş və qəzalı vəziyyətdə olması barədə müvafiq AKT və protokollar tərtib edilmişdir. Lakin illər keçməsinə baxmayaraq, bu günə qədər həmin ərazidən başqa yaşayış sahəsinə köçürülməmizə dair heç bir iş görülməyib.

Məlumat üçün qeyd edim ki, bizim evlərin əksəriyyəti, o cümlədən də mənim evim ötən əsrin əvvələrində tikilib. Yəni evimin amortizasiya müddəti çoxdan bitib. Evlərimizin yaxınlığına yerləşən 162 məktəb isə 1968-ci ildə tikilib. Məktəb tikiləndə evlər köçürülməli və ya müvafiq tədbirlər görülməli idi.

Evlərimiz arasındakı məsafə çox dar olduğundan, buradan yalnız bir nəfər adam keçə bilər. Bu dar yol 700 metr məsafə təşkil etdiyinə görə, hətta yanğınsöndürmə briqadası və ya təcili tibbi yardım maşınının xilas etmə işləri aparmaq üçün əraziyə daxil olması mümkün deyil. Hazırda biz çox çətin vəziyyətdə qalmışıq.

Bildirirəm ki, yaşadığımız evlərin yerləşdiyi ərazi qəzalı elan edildiyindən nə evimizi özəlləşdirə, nə də sata bilirik, nə də bizi bu ərazidən köçürürlər.

Yəqin gözləyirlər ki, kimin başına evi birinci uçsa ona da ev verib köçürdərlər.

Sizə müraciət etməkdə məqsədim odur ki, bizi bu çıxılmaz vəziyyətdən, hər an evlərimizin başımıza uçma təhlükəsindən xilas edəsiniz. Çünki dövlət orqanlarını bizim taleyimiz qətiyyən maraqlandırmır.

Sizdən xahiş edirəm ki, müraciətimi nəzarətə götürüb, bizə köməklik göstərəsiniz".

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Müvafiq qurumların mövqeyini dərc etməyə hazırıq.***




# Rusiya üçün "son

## AZAL-ın təyyarəsinə atılan güllələr Rusiyanın çöküşünü hazırlayır: Moskva aqoniyaya doğru sürətlə addımlayır...

**Rusiyanın illərdir "burda mənəm, Bağdadda kor xəlifə" şəklində meydan sulaması artıq onu dalana soxub, Kremli "izqoy"a çevirib. Azərbaycan da Rusiya kimi "izqoy"a çevrilib təklənmək istəmirsə, siyasi gerçəkləri nəzərə alıb, bu reallıqlardan çıxış etməlidir. Bunun üçün də rəsmi Bakı özünü ifadə üslubuna-tərzinə əl gəzdirməlidir. Ən azından Rusiyavari yox, Türkiyəni örnək alaraq məsafə qət etməlidir...**

2024-cü il başa vurduq, 2025-ci ilin ilk günlərini yaşayırıq. Könül istərdi ki, 2024-cü ili nikbin notlarla başa vuraq, amma Aktauda baş verən təyyarə qəzası toplum olaraq, bizi kədərə qərq etdi. Hamımız AZAL-ın "Embraer 190" təyyarəsinin son sərnişinlərinin son saatlarında nələr yaşadıqlarını hiss etdik, ailələrinin acılarına həmdərd olduq. Bu aviaqəza hər birimizi illiklərimizə qədər sızlatdı.

Təyyarənin ekipajı - dünya mediasının peşəkarlıqlarına heyran qaldığı fədakar pilotlarımız qəhrəmanlar cərgəsinə qatıldılar. Hökumə Əliyevanın "Hər şey yaxşı olacaq" sözləri hələ də qulaqlarımızdan getmir. Onlar ailəmizdən biridir artıq. Məh bu səbəbdən də 2024-ün sonu çox ağır oldu bizim üçün.

Qəlbimizi sızladan fəlakətin acısı qəzanın baş verməsində xüsusi rolu olan tərəfin saygısızlığı, insan həyatına "öz barmaqları arasından baxması", günlər keçməsinə rəğmən, öz günahlarını doğru-dürüst etiraf etməmələri "yaramıza duz basır". Pilotların uzaqgörənliyi və peşəkarlığı təkzibolunmaz sübutları miras qoymasaydı, suçlu tərəf qəzanın izinin nəinki itirilməsi, hətta səssiz-səmirsiz yoxa çıxmasına nail olacaqdı. Söhbət dünyanın başının bəlasına çevrilmiş "böyük derjava"dan - Rusiyadan gedir. Hansı ki, onun ətrafında halqa günbəgün, saatbasaat daralır. Rusiya beynəlxalq boykotla küncə sıxılmış vəziyyətdədir.

Bəli, Putin hadisənin Rusiya hava məkanında baş verməsinə görə üzr istəyib. Amma Rusiya tərəfi hələ də AZAL-a məxsus təyyarəni vurduğunu etiraf etmir, sadəcə aviaqəzanın Rusiyada baş verdiyinə görə üzrxahlıq edir. Dmitri Medvedev də Putinin başsağlığı diləyinə qoşulub, amma "daldan atılan daş topuğa dəyər". Bu yerdə Prezident İlham Əliyevin, "Təbii ki, burada hər hansı məqsədli terror aktından söhbət gedə bilməz. Ona görə də günahını boynuna almaq, dost ölkə sayılan Azərbaycandan üzr istəmək və bunu ictimaiyyətə çatdırmaq lazım olan addımlar idi. Təəssüf ki, ilk üç gündə Rusiyadan aldadıcı versiyalardan başqa heç nə eşitmədik", - cümləleri Moskvanın "qatarı buraxdığı"nın təsdiqidir. Əslində, burada Prezidentin "təyyarəmiz təsadüfən vuruldu" sözləri ilə ifadə edilən "yumşaq ritorikası" o anlama gəlir ki, rəsmi Bakı baş verənlərə rəğmən, diplomatik etikanı qoruyur. Amma Ukrayna Silahlı Qüvvələrinin dronlarla həyata keçirdiyi hava hücumları sayəsində ayıq-sayıq vəziyyətdə olmalı olan Rusiya hərbi hava qüvvələri hərbi və mülki aviasiya vasitələrini ayırd edə bilməli idi ki, heç bir "təsadüf"ə yer qalmasın. Odur ki, bu təsadüf məsələsinə toxunacağıq. Üstəlik, dron hücumları altına düşən Rusiya öz hava məkanını mülki təyyarələr üçün bağlamaq məcburiyyətində idi, lakin bu, edilməyib.



Prezident aviaqəza ilə bağlı müsahibəsində kifayət qədər suallar ortaya qoydu. Müsahibədən də görünür ki, rəsmi Bakı təyyarənin füzelajının deliklərlə dolu olması ilə ilkin versiya kimi lortaya atılan "quş sürüsüylə toqquşma" iddiasını tamamilə gündəmdən çıxardı. Kor tutduğunu buraxmadığı kimi, Rusiyanın "ikinci ehtimal" kimi ortaya atdığı "təyyarənin salonunda qaz balonu partlayıb" sayıqlaması da, necə deyərlər "cəhənnəmə getdi". Əslində, prezidentin "təəssüf ki, ilk üç gündə Rusiyadan aldadıcı versiyalardan başqa heç nə eşitmədik. Faktlar ondan ibarətdir ki, Rusiya ərazisində, Qroznı şəhəri yaxınlığında Azərbaycanın mülki təyyarəsi zədələnib və elektron müharibə nəticəsində idarəetmədən çıxarılıb, yerdən açılan atəş nəticəsində təyyarənin quyruq hissəsi də ciddi şəkildə zədələnib", açıqlaması da dediklərimizin diplomatik dildə ifadəsi idi. Baxmayaraq ki, hələ "qara qutu"da yazılanlar açıqlanmayıb, amma rəsmi Bakı ilk gündən baş verənlərin fərqində idi. Şübhəsiz, tezliklə Braziliyada çözüləcək "qara qutu" hər şeyi daha dəqiqliyi ilə ortaya çıxaracaq. Məsələn, bu zaman ən azı təyyarənin niyə yerə enə bilmədiyi, yaxud Aktauya istiqamətləndirildiyi aydın olacaq. Hansı ki, hazırda cəmiyyətimizdə təyyarənin tam olaraq nə vaxt vurulduğu, niyə Minvod və Mahaçqala hava limanlarına enməyə icazə verilmədiyi, təyyarənin qəsdən Qroznıdan yerüstü xidmət tərəfindən Aktauya göndərilib-göndərilmədiyi məsələləri açıq suallardır. Aydındır ki, nəzarətdən çıxmış təyyarənin dənizə düşmə ehtimalı yüksək idi. Bu halda "quşla toqquşma" əsas versiya kimi təqdim ediləcək və uzun müddət kimsə əksini sübut edə bilməyəcəkdi.

İstintaqın ilkin nəticələrinə əsasən, müəyyən edilib ki, Bakı-Qroznı marşrutu ilə hərəkət edən "Azərbaycan Hava Yolları"na məxsus təyyarə Rusiyanın "Pantsir-S" hava hücumundan müdafiə sistemlərindən istifadə etməklə Qroznı şəhərinə yaxınlaşarkən hücuma məruz qalıb. Üstəlik, Rusiya tərəfinin elektron döyüş sistemlərindən istifadə etməsi nəticəsində Azərbaycan təyyarəsinin rabitə sistemi tamamilə iflic vəziyyətinə düşüb. Məhz bu vəziyyətə görə, təyyarə Rusiya aviasiya məkanında radarlardan itib və siqnal yalnız Xəzər dənizi akvatoriyasında bərpa edilib.

Təyyarənin vurulmasından sonra "ağlı başına gələn" Kreml biabırçılıqdan və cəzadan yaxasını qırağa çəkmək üçün tələm-tələsik dekabrın 25-də diplomatlarını "təyyarə qəzasından sağ çıxmış həmvətənlərinə kömək göstərmək" və "məlumatları dəqiqləşdirmək" üçün Aktauya ezam etdi. Sözsüz, Moskva diplomatlarını zərərçəkmiş vətəndaşlarına kömək adı altında Aktauya "piştaxtaaltı anlaşma" üçün göndərmişdi. Yəqin ki, bu səfər "məlumatları dəqiqləşdirmək" və dəlil-sübutları yox etmək məqsədi daşıyıb.

Bir daha qeyd edək ki, təyyarə dənizə düşsəydi, qəzanın dəlilləri elə dənizdə də yox ediləcəkdi. Bütün deyilənlərdən başqa, Şimali Qafqazda həm mülki, həm də hərbi aerodromlar olan çoxlu hava limanları var, lakin təyyarə təkidlə Aktauya yönləndirilib. Aydındır ki, əgər hansısa möcüzə ilə təyyarə Şimali Qafqazdakı hava limanlarından birinə enə bilsəydi, o zaman aldığı raket zərbəsi faktını gizlətmək çətin olardı. Elə bunun qorxusundan təyyarənin hər vəchlə nə Qroznıda, nə Mahaçqalada, nə də ətrafdakı heç bir hava limanına enişinə imkan verilməyib.

Moskva aviaqəzanın araşdırılmasının Azərbaycanla Rusiyanın birgə Dövlətlərarası Aviasiya Komitəsinə həvalə edilmə-

# un başlanğıcı”





sini təklif etdi. İlham Əliyev isə təklifi rədd etdi və mövqeyini belə əsaslandırdı ki, “bu qurum əsasən Rusiya rəsmilərindən ibarətdir və ona Rusiya vətəndaşları rəhbərlik edir. Obyektivlik amilləri burada tam təmin olunmaya bilər”. Təbii ki, qəzadan ötən vaxt ərzində etirafa cəsarət edə bilməyən Rusiya şəffaflığa riayət etməyəcəkdi. Prezident bildirdi ki, fəlakəti araşdırmaq üçün beynəlxalq ekspertlərdən ibarət işçi qrup yaradılmalıdır. Bu qrupa təyyarə istehsalçısının - Braziliyanın “Embraer” şirkətinin nümayəndələri, Braziliya, Azərbaycan, Qazaxıstan və Rusiyanın ixtisaslaşmış qurumlarının nümayəndələri, habelə Dövlətlərarası Aviasiya Komitəsinin nümayəndələri daxil edilməlidir. Eyni zamanda, DAK nümayəndələri istintaqın rəhbərləri deyil, işçi qrupunun sıravi üzvləri olmalıdırlar. Əgər Azərbaycan fəlakətdən dərhal sonra Rusiya tərəfindən ədalətli və adekvat addımlar görsəydi, o zaman rəsmi Bakı bəlkə də Rusiya tərəfinin təklifinə etiraz etməzdi.

Bütün bu həngamədən sonra Kadırov qardaşı oğlunu Ukrayna PUA-larının hücumlarının öhdəsindən yaxşı gəldiyi üçün mükafatlandırır, sonra isə təzminat ödəməyə hazır olduğunu bəyan edir. Rusiyalı blogerlər “rus səmasındakı yad ünsürlərin” məhv edilməsi ilə bağlı video yayımlayırlar. Bu reaksiya bütövlükdə vəziyyəti daha da gərginləşdirdi və Azərbaycanda anti-Rusiya əhval-ruhiyyəsini gücləndirdi. Putinin üzrü hava hücumundan müdafiə sistemindəki səhvə görə məsuliyyətin etirafıdır, lakin günahkarlığın yox. Bəs günahkar olduğunun etirafı Rusiya kimi “böyük derjava”ya çox baha başa gələcək? Moskva nələri itirəcək?

Əlbəttə, Rusiyanın günahını etiraf etdiyi təqdirdə, gündəmə itirilmiş insan həyatlarına görə maddi kompensasiya gələcək. Doğrudur, ilkin olaraq, AZAL Müşahidə Şurasının qərarına əsasən, zərərçəkənlərin hər birinə 20 min manat, həlak olanların hər birinin ailəsinə isə 40 min manat məbləğində kompensasiya təyin edilib. Bundan əlavə, bütün sərnişinlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tətbiq edilən müvafiq sığorta ödənişini alacaqlar. Elə Prezident İlham Əiyevin Rusiya tərəfinə tələbləri də mahiyyət etibarilə bunu əks etdirir:

- Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir,
- İkincisi, günahını etiraf etməlidir,
- Üçüncüsü, günahkarlar cəzalandırılmalı, məsuliyyətə cəlb edilməli, Azərbaycan dövlətinə, xəsarət alan sərnişinlərə və ekipaj üzvlərinə təzminat ödənilməlidir.

Birinci tələb tam təmin olunmuş sayıla bilməz. Çünki ikinci tələb - günahını etiraf etmək ifadə edilməyib. Günahını etiraf etməyin məntiqi nəticəsi təzminat ödəməyə hazır olduğunu bəyan etməkdir ki, Rusiya bunu etsə günahını boynuna almış olacaq. Bəs tələblər təmin olunmasa hansı addımlar atılacaq?

İlham Əliyev çıxışında bildirdi ki, Azərbaycan Rusiyanın 10 şəhəri ilə qeyri-müəyyən müddətə hava hərəkətini dayandırır. AZAL artıq Rusiya Federasiyasının 7 şəhərinə uçuşları qeyri-müəyyən müddətə dayandırıb, həmçinin Rusiyanın üç şəhərindən Rusiya aviaşirkətlərinin reysləri də dayandırılıb. Həmçinin, Azərbaycan Nazirlər Kabinetinin sərəncamına əsasən, Rusiya vətəndaşlarının ölkədə qalma qaydalarını sərtləşdirir. Belə ki, Azərbaycana vizasız gələn ruslar bir təqvim ili ərzində ölkədə 90 gündən artıq qala bilməzlər. Qərar 2025-ci il yanvarın 1-dən artıq qüvvəyə minib.

Eləcə də Azərbaycan AZAL təyyarəsinin Aktauda qəzaya uğramasını “qərəzli işıqlandıran” Rusiya KİV-lərinə qarşı sanksiyaların tətbiqi imkanını nəzərdən keçirir. Bildirilir ki, “baş verənlərlə bağlı etibarsız xəbərlərin və məqalələrin konkret müəlliflərinə Azərbaycan ərazisinə giriş qadağan edilə bilər”. “Bu, Rusiyanın aparıcı dövlət telekanallarına və nəşrlərinə, o cümlədən onların əməkdaşlarına da təsir edə bilər. Rusiya XİN əməkdaşları bildirirlər ki, Bakıya qarşı hər hansı “cavab tədbirləri” tətbiq etmək planı yoxdur, çünki “vəziyyət son dərəcə kəskindir və dərinləşə bilər”.

Daha bir maraqlı nüansı qeyd etmək yerinə düşər. “Embraer 190” təyyarəsinin uçuş ərazisindəki heç bir hava limanına buraxılmayaraq, Aktauya yönləndirilməsi nəyə hesablanmışdı? Bəli, təyyarə qəsdən Aktauya yönləndirildi ki, hava limanına çatmasın, dənizin üzərində partlasın və beynəlxalq cinayətin izləri ört-basdır edilsin.

> Bütün yazılan və deyilənlərə nəzər salaraq, baş verənlərin kimin “dəyirmanına su tökdüyünü” görmək olar. Bu hadisələr fonunda kim itirdi, qazanan kim oldu? Prosesi lap başından şərh etdikdə Rusiyanın “böyük derjava” yarlığının altına sığınaraq, əlindəki dəyənəyi sağa-sola yelləməsi, qonşularına aqressiv saymazyana münasibətinin təzahürü kimi görünür. Kremli Azərbaycana qarşı qeyzləndirən bir amil də Türkiyənin Suriyada qalibiyyəti ola bilər...

Yeri gəlmişkən, Tokayev Əliyevi Azərbaycan təyyarəsinin qəzaya uğrama şəraitinin obyektiv araşdırılacağına əmin edib. Telefon danışığı zamanı Qazaxıstan prezidenti azərbaycanlı həmkarını əmin edib ki, Qazaxıstan tərəfi Aktau şəhəri yaxınlığında AZAL sərnişin təyyarəsinin qəzaya uğraması ilə bağlı bütün halların hərtərəfli və obyektiv aydınlaşdırılmasını təmin etmək üçün əlindən gələni edəcək.

Bütün yazılan və deyilənlərə nəzər salaraq, baş verənlərin kimin “dəyirmanına su tökdüyünü” görmək olar. Bu hadisələr fonunda kim itirdi, qazanan kim oldu? Prosesi lap başından şərh etdikdə Rusiyanın “böyük derjava” yarlığının altına sığınaraq, əlindəki dəyənəyi sağa-sola yelləməsi, qonşularına aqressiv saymazyana münasibətinin təzahürü kimi görünür. Kremli Azərbaycana qarşı qeyzləndirən bir amil də Türkiyənin Suriyada qalibiyyəti ola bilər. Suriyanı itirən Rusiyanın Cənubi Qafqazı itirəcəyi an da yaxındır. Bunu anlaması Kremli hövsələdən çıxarır və Türkiyədən çıxa bilmədiyi qeyzini Azərbaycandan alır.

Üstəlik, Kreml həm də TDT-yə qarşı addım ataraq, Astana ilə Bakının münasibətini Aktau qəzası üzündən korlamağı düşünmüş ola bilər. Digər tərəfdən isə təcridi dərinləşən Kreml rejiminin Bakıya qarşı “siyasi tərbiyəsizliyi” onun öz əleyhinə işləyir.

Faciəli qəza üçün seçilmiş tarix də prezident Əliyevin Sankt-Peterburq şəhərində MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiyaya səfərə yola düşməsi baxımından “əlamətdar” və “simvolik” idi. Moskvaya çatmaq üzrə olan Azərbaycam prezidenti təyyarəsini geri döndərdi. Rusiyanın silahlı qüvvələri tərəfindən vurulan sərnişin təyyarəsi Kremli Azərbaycanın və dünyanın nifrət obyektinə çevirməyi, onun vəhşiliyini vurğulamağa bacarmışdı. Qısa məsafəli hədəflərdə Moskvanın lehinəymiş kimi görünənlər uzun məsafədə bu ölkənin əleyhinə işləyəcək. Çünki bu qəza nəticədə onsuz da “izqoy” olan Rusiyadan Azərbaycanın da üz döndərməsinə, münasibətlərin kəskinləşməsinə yol açdı. Məsələn, neftinə sanksiya qoyulduğundan onun sata bilməyən Moskva bunu başqa ölkələrin köməyi ilə edirdi ki, Azərbaycan da onlardan biri idi. Rusiya üçün çox vacib olan”Şimal-Cənub” dəhlizi bu dəqiqə ona hava-su kimi vacibdir. Hətta Ermənistan da “Şimal-Cənub” dəhlizində “Dünyanın kəsişməsi” layihəsini irəli sürdü. Bu logistika marşrutu Rusiyanın Azərbaycandan keçməklə Türkiyəyə, Suriyaya, Yaxın Şərqə, Afrikaya yoludur. Bakı ilə münasibətlərin kəskinləşməsi Moskvanın yoluna “pəl vuracaq”, çünki Kreml Suriyadakı varlığını itirdi. Kremlin qarşısına yekə bir kötük dığırladan qüvvə Azərbaycanı da Rusiyadan qoparmaq üçün ideal bəhanənin məharətlə təqdimatını etdi.

Bütün bunlara paralel olaraq, artıq Cənubi Qafqazda Ermənistan Qərb istiqamətindədir, Gürcüstan iki cinah arasında var-gəl edir, Azərbaycan balanslı siyasət yürüdür(dü). Amma son zamanlar Bakıyla həm Türkiyənin, həm Qərbin arasında “buz dövrü” salmaq çalışmaları da gedirdi. Belə anlaşılır ki, Aktau aviaqəzası Azərbaycanın üzünü Rusiyadan döndərməyi hədəfləyən hadisə oldu.

Burada diqqəti çəkən başqa bir məqam da var. Əgər, aviaqəzanı icra edənlər Rusiyanın silahlı qüvvələridirsə, bu akt da Bakı ilə Moskvanın münasibətlərinə kəskinləşdirməyə töhfə verdisə, deməli, icraçılar Qərblə işbirliyi içində və imperiyanın çöküşü, sökülüşü naminə çalışırlar. Onlar sadəcə çöküş zamanı imperiyanın “ən dadlı tikəsi”ni qamarlamaq üçün “start”da dayanıblar. Bir sözlə, Rusiya özü öz ayağına güllə vurdu. AZAL-ın təyyarəsinə atılan güllələr Rusiyanı çöküşə hazırlayırlar. Bundan ən böyük zərər görən isə, ölkəni dərəbəylik tərzində idarə edən Rusiya hakimiyyətindəki başıpozuq qruplaşmalar və Azərbaycanla hədələyici tonda danışacaq qədər “cəsarət” toplayan Kadırovçular olacaq...

**Ülviyyə ŞÜKÜROVA**

# “Bir kağıza görə məndən 250 manat pul istəyirlər”

Fəxriyyə Tağıyeva: “Hərf səhvinə görə ünvanlı sosial yardımla bağlı müraciətimə imtina verilib”

**Gədəbəy rayonu, Çaldaş kənd sakini Tağıyeva Fəxriyyə Rəsul qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, hərf səhvinə görə ona ünvanlı sosial**




**yardım ayrılmasından imtina olunub:**

“Mən, Tağıyeva Fəxriyyə Rəsul qızı, yazaraq sizdən xahiş edirəm ki, problemimi işqılandırasınız.

Qeyd edim ki, Vətən uğrunda şəhid olan ailənin nəvəsiyəm. Atam və anam yoxdur. Ünvanlı sosial yardım üçün müraciət zamanı hərf səhvi etmişəm. İcazə vermirlər ki, kənd sovetindən arayış alım. Deyirlər ki, artıq mümkün deyil, gərək çıxarış çıxarılsın. Ona da imkanım yoxdur. Bir kağıza görə məndən 250 manat pul istəyirlər.

Oğlum böyrəyindən əməliyyat olunub. Heç bir yerdən imkanımız yoxdur. Gündəlik 5 manata maşın ustası yanında köməkşi işləyir. Bilmirəm bu pula da ərzaq, yoxsa paltar alaq.

Dövlət Sosial Müdafiə Fondunun Bərdə Rayon Şöbəsinə getdim. Dedim ki, vəziyyətim pisdir. Ordan da mənə bildirilər ki, sən VÖEN ödə, 1 ildən sonra yenidən baxarıq. 1 il mən necə VÖEN ödəyim?

Qeyd edim ki, Məşğulluq İdarəsinə qəbula da yazıldım. Həmin vaxtlarda anam rəhmətə getdi. Sonra dedilər ki, sizə imtina verilib. İmtinanın səbəbini hələ də bilmirəm.

Qardaşımın himayəsində yaşayıram. O, evlənsə mən harada qalacağam? Atamdan bizə bir ev qalıb. Evinsə bir hissəsini zəlzələ dağıdıb”.

Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili ilə əlaqə saxladıq. O, şikayətçinin müraciətinin araşdırılacağını bildirdi.

**Aynurə MUSTAFAYEVA**

# Direktor ibtidai sinif şagirdini kabinetinə salıb döydü, anası etiraz etdikdə isə...

## Gülbəz Rəhimova: “Direktora etiraz etidiyim üçün məkətbin istilik sisteminə baxan həhyat yoldaşımı işdən çıxardı”

**Ağcabədi rayonu, Xocavənd kənd sakini Rəhimova Gülbəz Möhübbət qızı tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Elm və Təhsil naziri Emin Əmrullayevə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

**“Cənab Prezident!**
**Cənab Nazir!**

Mən, Rəhimova Gülbəz Möhübbət qızı, əvvala qeyd edim ki, Taleh Əliyev adına Xocavənd kənd 2 saylı tam orta məktəbin direktoru Mehriban Qasımova 3-cü sinifdə oxuyan övladımı otağına salaraq, möhkəm döymüşdür.

Bildirim ki, valideynlər icalasda, uşaqlar isə dərsdə olan vaxtı 2 uşaq bir-biri ilə dalaşıb. Buna əsəbləşən direktor uşaqların ikisini də otağa çağırıb. Davanın necə olduğunu uşaqlardan soruşub. O biri uşaq direktora deyib ki, Ruslan məni vurdu. Direktor həmin uşağa deyib ki, Ruslan sənin harandan vurubsa mənə de, onu eyni nahiyyəsindən vuracam. Beləliklə də, direktor oğlumu vəhşicəsinə döymüşdür.

Biz iclasdan çıxarkən uşaqlardan və müəllimlərdən eşitdim ki, direktor kiminsə uşağını döyüb, uşağın halı pisləşib. Dərhal sinifə girib öz oğlumu axtardım. Uşağın halını görüb, sanki dəli oldum.

Bununla bağlı məktəbə gedib direktordan soruşdum ki, niyə mənim uşağımı döymüsən? Mənə utanmadan bildirdi ki, sənin uşağın başqa bir uşağı vurub,




məndə uşağa dedim ki, sənin harandan vurubsa, de, mən də onu həmin nahiyyəsindən vuracam, bu səbəbdən sənin uşağını vurdum.

Əlavə edim ki, direktor uşağı digər uşağın yanında, kabinetdə möhkəm döyüb. “Sən kimsən mənim uşağımı belə möhkəm döyürsən” dedikdə isə, mənə “tərbiyəli danış, hələ sənin ərini də işdən çıxardacağam”, -deyə hədələdi.

Onu da bildirim ki, direktorun kabinetindən çıxan uşaq sinifə daxil olarkən halı pisləşib. Müəllimə su verdikdən sonra biraz özünə gəlib.

Həhyat yoldaşım Rəhimov Şahin Bəylər oğlu da həmin məktəbin istilik sisteminə baxırdı. Bu il 3 gün işə getməyinə baxmayaraq, səbəbsiz yerə onu işdən çıxardıb. Səbəb uşağımı döyərkən mənim onunla kobud danışmağım olub.

Yoldaşım soruşur ki, mən işimin başındayam, hansı səbəbə görə məni işdən çıxarmısınız? Cavab verib ki, səni regional idarədən çıxardıblar. Regional idarədən isə deyirlər ki, bizim xəbərimiz yoxdur.

**Cənab Prezident!**
**Cənab Nazir!**

Bu məktəbin direktorunun əlindən tək biz valideynlər yox, müəllim heyəti də bezib. Yoldaşım 2 il həmin məktəbin istilik sisteminə baxıb, pulunu alıb. Bu il qərəzli şəkildə direktor onu işdən çıxarıb. Üstəlik, yoldaşıma deyib ki, “get, hara istəyirsən şikayət et, heç kəsə heç nə sübut edə bilməzsən”. Amma bu işlə maraqlanılsa, döyülən uşaqların valideynləri danışarlar. İndi danışa bilmirlər, çünki direktor onları da hədələyir. Və deyir ki, məni burdan heç kəs çıxarda bilməz.

Yoldaşım işlədiyi vaxtlarda məktəbdə çox özbaşınalıqlar olub. Məktəbin ağaclarını belə, bəhanə ilə kəsdirib, satıblar.

Onu da qeyd edim ki, yoldaşım ilk işə girdiyi il ona direktor maaş kartını verərmədi. Maaş kartı direktorda qaldı. 2-ci il isə kartı bizə qaytardı. Yəni bu derektor kimlərəsə arxayın olaraq, bu işləri görür”.

**Cənab Prezident!**
**Cənab Nazir!**

Szdən xahiş edirəm ki, qeyd etdiyim məsələlərin araşdırılması üçün müvafiq orqanlara göstəriş verəsiniz”.

Məsələ ilə bağlı Taleh Əliyev adına Xocavənd kənd 2 saylı tam orta məktəbin direktoru Mehriban Qasımova ilə əlaqə saxladıq. Direktor əməkdaşımıza sadəcə onu dedi ki, “iddialar əsassızdır”.

**Jalə FAMİLQIZI**

# Şəhid atası icra başçısından şikayətçidir

## “Gədəbəyin icra başçısı Orxan Mürsəlov şikayətçi olduğuma görə məni təngə gətirib”



**Gədəbəy rayonu, Çobankənd kənd sakini, şəhid atası Əliyev Əvəz Kamil oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

**“Hörmətli redaksiya!**

Yazıb sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, oğlum Əlizadə Şamxal 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsində döyüşlərə qatılıb. Şuşa, Xankəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Şuşa şəhərinin işğaldan azad edilməsi əməliyyatında iştirak edib. 8 noyabr 2020-ci ildə Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Qeyd edim ki, Gədəbəy rayonunun keçmiş icra başçısı İbrahim Mustafayev halhazırda Prezident Administrasiyasının Ərazi idarəetmə orqanları ilə iş üzrə şöbə rəhbərinin müavini vəzifəsində çalışır. İcra başçısı şəhidlərimizin dəfn günündə öz vəsaiti hesabına pul ayırmışdı. 600 manat şəhidimizin dəfninə, ərzağına, 300 manat isə məzarın hazırlanmasına ayrılmışdı.

Gədəbəy rayonu, Çobankənd kənd icra nümayəndəsi Nizaməddin Bağırov İcra Hakimiyyətinin ayırdığı 300 manatı restoranda yeyib-içib. Bunu mən sonralar bildim. Hələ də bu ədalətsizliyə dözə bilmirəm.

Onu da vurğulayım ki, Gədəbəy rayonunun indiki icra başçısı Orxan Mürsəlov şikayətçi olduğuma görə məni təngə gətirib. Artıq ölkədən qaçmaqdan başqa yolum yoxdur. Bu dərdə dözə bilmirəm. Təhna qalmışam. Xahiş edirəm, mənə dəstək olun”.

**Aynurə MUSTAFAYEV**

**Redaksiyadan: Şikayətçinin göndərdiyi məktubu olduğu kimi dərc etdik. Əlbəttə, biz redaksiya olaraq, burada yazılanlara şərik deyilik. Sadəcə, mətbuat haqqında qanuna istinad edərək, redaksiyamıza daxil olan şikayəti olduğu kimi işıqlandırdıq. Qarşı tərəflərə əlaqə saxlaya bilmədiyimiz üçün yazını mövqesiz dərc etməyə məcbur olduq. Lakin yazıda adları çəkilən qurumların mövqeyini də dərc etməyə hazırıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# Narkomaniyadan xilas yolları...

## Klinik psixoloq Leyla Məmişova: “Maarifçiliyin genişləndirilməsi və cəzaların sərtləşdirilməsi vacibdir”

**“Narkotiklərin qanunsuz dövriyyəsini önləmək üçün həm hüquqi, həm də sosial yanaşmalar tətbiq olunmalıdır”**

“Şagirdlərə narkotiklərdən uzaq durmaq üçün yalnız nəzəri məlumatlar deyil, eyni zamanda real nümunələr və həyati təsirlər haqqında məlumat verilməlidir”

“Yeniyetmə və gəncləri narkotikdən uzaq tutmaq üçün ilk növbədə maarifləndirmə aparılmalıdır. Məktəblərdə və universitetlərdə narkotiklərin fiziki, psixoloji və sosial zərərləri haqqında ətraflı məlumat verilməlidir. Gənclər narkomaniyanın qısamüddətli "zövq" yaratmaqdan daha çox, uzunmüddətli zərər verdiyini anlamalıdırlar”.



Bu haqda Bakı Şəhər Narkoloji Mərkəzin klinik psixoloqu Leyla Məmişova bildirib. Günümüzdə narkomaniya ilə mübarizənin hər bir cəmiyyət üçün zəruri olduğunu qeyd edən L.Məmişova deyir ki, bunun üçün ilk növbədə yeniyetmə və gəncləri sağlam həyat tərzinə yönləndirmək lazımdır: “Onların asudə vaxtlarını sağlam və faydalı şəkildə keçirmələri üçün idman tədbirləri, rəqs, musiqi və digər mədəni fəaliyyətlər təşkil edilməlidir. Aktiv və məşğul həyat tərzi narkotiklərə marağı azaltmağa kömək edir”.

Klinik psixoloq bu fikirdədir ki, yeniyetməlik dövründə psixoloji problemlər (stress, təzyiq, tənha hiss etmək və s.) narkotik istifadəsinə səbəb ola bilər: “Buna görə də psixoloji dəstək xidmətləri bu risklərin qarşısını almaq üçün əlçatan olmalıdır. Təkcə gənclərin yox, ailənin də maarifləndirilməsi narkotiklə mübarizə tədbirlərində mühüm yer tutur. Valideynlər narkotik istifadəsinin ilkin əlamətlərini tanımağı öyrənməli və vaxtında müdaxilə etməlidir. Bundan əlavə, unutmaq olmaz ki, gənclər ailədə dəstək və sevgi gördüklərində problemlərini narkotiklər vasitəsilə həll etməyə çalışmazlar. Ailələr açıq ünsiyyət qurmalı, uşaqlarının sosial ətrafına diqqət yetirməlidir”.

Müsahibimiz deyir ki, narkomaniyaya qarşı mübarizədə maarifçiliyin genişləndirilməsi və cəzaların sərtləşdirilməsi bir-birini tamamlayan yanaşmalardır: “Lakin daha uzunmüddətli və təsirli həll yolu maarifçilikdir. Maarifçilik narkomaniyanın köklü səbəblərini aradan qaldırır. İnsanlar narkotiklərin fiziki, psixoloji və sosial zərərlərini dərk etdikdə, onlara maraqları azalır. Maariflənmə narkomaniya ilə bağlı stereotipləri və yanlış inancları aradan qaldırmağa kömək edir. İnsanlar problemi daha yaxşı anlayır və asılı şəxslərə daha çox dəstək göstərir”.

Leyla Məmişova hesab edir ki, cəmiyyətdə narkomaniyanın, narkotik ticarətinin qarşısının alınması üçün cəzaların sərtləşdirilməsi mütləqdir: “Yəni maarifçiliklə yanaşı, cəzaların sərtləşdirilməsinin də üstün cəhətləri vardır. Məsələn, qanunsuz narkotik dövriyyəsi ilə məşğul olan qruplar cəza tədbirlərindən çəkinə bilər. Bu, narkotiklərin əlçatanlığını azalda, bundan əlavə, sərt qanunlar, xüsusilə yeniyetmə və gəncləri narkotik istifadəsindən çəkindirə bilər. Bu səbəbdən, güman edirəm ki, hər iki üsulun özünəməxsus üstünlükləri var. Amma, bir daha qeyd edim ki, əsas həll yolu maarifçilikdir. Çünki bu, problemi kökündən həll etməyə yönəlmişdir. İnsanlar narkotiklərin zərərlərini və risklərini anladıqda, onlara maraqları azalır. Cəzaların sərtləşdirilməsi isə əsasən nəticələrlə mübarizə aparır, yəni ticarət və istifadə proseslərini məhdudlaşdırmağa çalışır.

Bu səbəbdən, əksər ekspertlər hesab edir ki, maarifçilik və cəzaların birləşməsi daha effektivdir. Cəmiyyətdə məlumatlandırma artırılarkən, qanunsuz dövriyyə ilə bağlı qanunların icrası gücləndirilməlidir. Bu iki yanaşmanın balanslı tətbiqi cəmiyyətin narkomaniyadan xilas olması üçün ən optimal həll yoludur”.

L.Məmişova onu da dedi ki, tanınmış insanların narkomaniyaya qarşı təbliğat işlərində iştirak etməsi cəmiyyətə müsbət təsir göstərir. Yeniyetmə və gənclər bu şəxsləri rol modeli kimi qəbul edir və onların fikirlərinə daha çox önəm verir: “Müğənnilər, aktyorlar, blogerlər, jurnalistlər və digər sənət adamlarının sosial mediada və ictimai platformalarda böyük izləyici kütləsi var. Onların mesajları qısa müddətdə daha geniş auditoriyaya çata bilər. Eyni zamanda, yeniyetmə və gənclər sevdikləri məşhurları, onların həyat tərzlərini təqlid edirlər. Bir müğənni və ya aktyor narkotiklərdən uzaq durmağın vacibliyi haqqında danışarsa, bu mesaj daha təsirli ola bilər.

Narkotik satışını önləmək və narkotik maddələri insanlar üçün əlçatmaz etmək narkomaniyaya qarşı mübarizənin əsas istiqamətlərindən biridir. Bunun üçün müxtəlif sahələrdə kompleks tədbirlər həyata keçirilməlidir.

İlkin olaraq narkotik alış-verişi üçün potensial məkanlara nəzarət gücləndirilməlidir. Bura daha çox gecə klubları, əyləncə məkanları, parklar, məktəb və universitetə yaxın ərazilər, tikinti sahələri və s. daxildir.

Bunlardan əlavə, son vaxtlarda sosial şəbəkələrdən narkotik alqı-satqısı üçün geniş istifadə olunur. "Dark web" və digər rəqəmsal platformalarda narkotik satışı ilə məşğul olan şəbəkələr izlənilməli və bloklanmalıdır. Sosial şəbəkələr və digər onlayn platformalarda narkotik satışını təşviq edən kontentlər dərhal silinməli və bu fəaliyyətlə məşğul olanlar cəzalandırılmalıdır.

Narkotiklərin qanunsuz dövriyyəsini önləmək üçün həm hüquqi, həm də sosial yanaşmalar tətbiq olunmalıdır. Bu proses yalnız dövlət qurumlarının deyil, həm də vətəndaş cəmiyyətinin, beynəlxalq təşkilatların və tanınmış şəxslərin birgə səyləri ilə daha təsirli ola bilər. Kombinasiya edilmiş tədbirlər narkotiklərin əlçatanlığını azaldaraq narkomaniya ilə mübarizədə mühüm irəliləyişlərə səbəb ola bilər”.

Klinik psixoloq hesab edir ki, narkomaniyanın zərərləri ilə bağlı maarifləndirmə işləri aparılması üçün təhsil sistemində də ciddi dəyişikliklərə ehtiyac var: “Xüsusilə, bu sahədə maarifləndirmə işinin daha sistemli və effektiv olması üçün ayrıca dərs vəsaitlərinin hazırlanması mühüm rol oynaya bilər. Bu yanaşma həm təhsilin keyfiyyətini artırar, həm də gənc nəslin bu probleme qarşı hazırlıqlı olmasını təmin edər.

Profilaktika erkən yaşdan başlamalıdır. Narkomaniya ilə bağlı maarifləndirmə işi erkən yaşlardan başlayaraq, pilləli şəkildə aparılmalıdır. Gənclər narkotiklərin fiziki, psixoloji və sosial zərərləri haqqında dolğun məlumat almalıdırlar. Təhsil müəssisələrində narkotiklərlə bağlı məlumat kifayət qədər dərin deyil. Mövcud dərslərdə bu mövzu çox ümumi şəkildə izah olunur və gənclərin diqqətini cəlb etmir. Şagirdlərə narkotiklərdən uzaq durmaq üçün yalnız nəzəri məlumatlar deyil, eyni zamanda real nümunələr və həyati təsirlər haqqında məlumat verilməlidir”.

Müsahibimiz deyir ki, dərs vəsaitləri 3 mərhələli, yəni ibtidai, orta və yuxarı siniflər üçün ayrıca hazırlanmalıdır: “İbtidai siniflər üçün olan dərs vəsaitində sağlam həyat tərzinin əsasları öyrədilməli, zərərli vərdişlərdən uzaq durmağın vacibliyi sadə dildə vurğulanmalıdır.

Orta siniflər üçün narkotiklərin sağlamlığa və sosial həyata təsiri ətraflı şəkildə izah edilməlidir.

Yuxarı siniflər üçün isə hüquqi nəticələr, narkotik asılılığının müalicəsi və sosial problemlər barədə məlumat verilməlidir.

Eyni zamanda, bu dərs vəsaitinə yalnız nəzəri biliklər deyil, narkotiklərlə bağlı suallar, müzakirələr, qrup layihələri və real hadisələrə əsaslanan nümunələr də daxil edilməlidir.

Hesab edirəm ki, narkomaniya mövzusu biologiya, həyat bilgisi, psixologiya və hüquq dərslərinə inteqrasiya edilə bilər. Narkomaniyanın zərərləri ilə bağlı ayrıca dərs vəsaitinin hazırlanması və təhsil sistemində dəyişikliklərin aparılması bu bəlaya qarşı mübarizədə əsaslı addım ola bilər. Təhsil prosesi yalnız məlumat verməklə üçün deyil, həm də gənclərin düşüncə tərzini dəyişmək və onların sağlam seçimlər etməsinə şərait yaratmaq üçün istifadə olunmalıdır. Bu yanaşma narkotiklərə qarşı kollektiv immunitetin formalaşdırılmasına kömək edəcəkdir”.

*(Ardı var)*

**Hazırladı:**
**Fuad BİLƏSUVARLI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur



# Populizmin sonu nə ilə nəticələnir?

**Populizm hələ ibtidai-icma dövrünün son mərhələlərində meydana gəlib, məhdud çərçivə və miqyasda mövcud olsa da, dövlət yarandıqdan sonra populizmin tətbiqi miqyası və çərçivəsi sürətlə genişlənməyə başlamışdır. Çünki dövlət yarandıqdan sonra onun idarə edilməsində, xüsusilə kütləni hər bir dövlətin məzmunu, mahiyyəti və formasına uyğun düşüncə, mənəviyyat, əxlaq çərçivəsində saxlamaq üçün geniş istifadə edilən vasitələrdən biridir. Həm də dünya əhalisinin günümüzdə səkkiz milyard nəfər, dövlətlərin sayının isə iki yüzdən çox olduğu bir vaxtda, populizm dünyada hər gün yüz milyard dəfələrlə təkrar olunan bir reallığa çevrilmişdir. Bəs, əslində populizm anlayışının mahiyyəti nədir? Bu gün cəmiyyətdə populizm anlayışını kütlənin hər hansı hadisə, proses və s. cəmiyyət üzvlərinin hamısının başa düşə biləcəyi sadə, bu gün çox işlənən terminlə desək populyar formada izah, şərh edilməsi kimi dəyərləndirilir.**

*(Əvvəli ötən saylarımızda)*

Ölkəni bu günkü təhlükəli vəziyyətə gətirib çıxaran, cəmiyyətimizdə baş alıb-gedən ağırlı-yüngüllü bütün iqtisadi, ictimai, kriminal cinayətlərin mənbəyi, onları pilləvari doğuran əsas səbəb məhz ölkədə mövcud olan quldurluq üsulları ilə idarə edilən rejimdir. Bu gün ölkədə mövcud olan quruluş hər bir vətəndaşın, bütövlükdə cəmiyyətin iqtisdai-ictimai, elmi-texniki inkişafına deyil, kiçik bir zümrənin ölkənin bütün sərvətlərinin vəhşicəsinə talan etməsi ilə yanaşı, əhalinin mütləq əksəriyyətinin qul statusunda mövcudluğunu dövlətin zor mexnizmləri vasitəsilə reallaşdırmağa hesbalanmış bir quruluşdur. Belə bir sistemdə təkcə dilimizin deyil, həyatın bütün iqtisadi-ictimai, o cümlədən hüquqi, inzibati, mədəni, mənəvi sahələrinin, eləcə də elmi-texniki sahələrin deformasiyaya uğrayıb tənəzzül etməsi, obyektiv olaraq təbii haldır.

Bundan başqa, bu vəziyyəti labüd edən obyektiv səbəblərdən biri də ölkənin kiçik olması ilə əlaqədar müasir elmi-texniki, iqtisadi-ictimai inkişafının əsasını təşkil edən irimiqyaslı, böyük kapital qoyuluşları tələb edən müasir elmi-tədqiqat, istehsal sahələrinin yaradılması və fəaliyyətinin təşkil etməyin çox mürəkkəb və çətin həll edilə bilən məsələ olmasıdır. Bu adi həqiqətləri dərk edə bilməyənlərə bunu etiraf edərək, mövcud vəziyyətin aradan qaldırılması üçün tədbir görülməsi sərf etməyən müxtəlif kateqoriyalı adamlar, hər hansı bir məsələni izah edərkən, çıxış yolu kimi məsələni populist yöndən dəyərləndirməyə üstünlük verirlər.

Dövlət piramidasının hər üç qolunun istisnasız olaraq bütün nümayəndələri cəmiyyətdə baş verən bütün proses və hadisələrin kökünə toxunmadan, adi gözlə görünən nəticələrini özlərinə sərf edən məzmunda və populist səviyyədə şərh edirlər. Bununla bərabər, həyata keçirdikləri tədbirləri də, kökünə, mahiyyətinə toxunmadan, populist şəkildə kütləyə "cəmiyyət üçün müsbət bir yenilik", hətta "islahat" adı ilə sırıyırlar.

Özlərini müxalifət sayan, yaxud elan edənlər də hakimiyyət nümayəndələrindən geri qalmırlar. «Müxalifətçilər■ hakimiyyətin etdiyi müxtəlif iqtisadi, hüquqi, kriminal cinayətlərin kiçik hissələrini, çox vaxt da əllərində sənədli hüquqi fakt olmadan (çünki, onların belə faktları əldə etmək imkanı çox məhduddur) mümkün olan KİV-lər vasitəsilə elan edərək, bu bəlalardan qurtulmağın yeganə yolu kimi Qərb dəyərləri üzərində qurulan quruluş olduğunu iddia edirlər.

Ölkənin, az-çox dünyanın vəziyyətindən xəbəri olanların da Azərbaycan kimi kiçik bir ölkənin Qərbin pəncəsinə keçdikdən sonra "yağışdan çıxıb, yağmura düşəcəyini" bildiyindən, «müxalifətin■ kütləni ardınca aparmaq cəhdləri heç bir nəticə vermir. Özlərini müxalifət elan edənlərin bu barədə vəziyyəti daha acınacaqlıdır. Çünki onların hər bir çıxışı bütövlükdə hökmən iki müxtəlif hissədən ibarət olmalıdır. Birinci hissədə onlar müxalifət kimi hansısa məmura "özünüzü yığışdırın", "bəzi məmurlar qudurublar" səpkili sözlərlə xoruzlanmalı, ikinci hissədə isə dövlət piramidasının ən yüksək eşalonunda duranların hansınasa bir bəhanə ilə hökmən məddahlıq edərək yaltaqlanmalıdır. Çünki qul sahibi ilə qulun arasındakı ara statusa, yəni nökər statusuna malik olan varlığın mənəviyyatı, əxlaqı, davranışı və s. ancaq bu oyun qaydasına tabe olaraq tənzimlənir.



Odur ki, bu kateqoriyaya mənsub olanların nəinki çıxışları, hətta qısa kəlmələri belə hadisə və prosesin nəinki əsl kökündən xəbər verir, əksinə, hətta kütlənin adi gözlə gördüyü reallığı belə sırf populist əsasla dəyərləndirməyi, ifadə etməyi tələb edir. Bu da bəzən "qaş qayırmaq əvəzinə, vurub gözü də çıxarmaqla", nəticələnir. Buna ən bariz misal olaraq millət vəkili Razi Nurullayevin bu yaxınlarda Milli Məclisdəki çıxışını göstərmək olar. R.Nurullayev bu çıxışında Respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya müraciətlə xeyli izhari-məhəbbətdən sonra, onun İKONA olduğunu söyləyir. Hansı ki, o, əslində bu çıxışı ilə Birinci vitse-prezidenti təhqir etmiş oldu. Birincisi, M.Əliyeva bu və ya digər şəraitdə dövlət başçısının funksiyasını yerinə yetirəcək, yəni prezidenti əvəz edərək, dövləti idarə etmək səlahiyyətinə malik şəxsdir. İkincisi, R.Nurullayev istər xarici görkəmi, istər də hər hansı bir cəhəti ilə M.Əliyevanın əhatə dairəsində ola biləcək birisi deyil. Ranqlarından asılı olmayaraq, iki dövlət məmurundan birinin digəri haqqında söylədiyi fikrin məzmunu ancaq onun vəzifə səlahiyyətlərinə aid işgüzar məzmunda ola bilər. Təsadüf deyil ki, R.Nurullayevin bu yöndəmsiz, heç bir təyinata, normal məntiqə sığmayan "ikona" çıxışı, nəinki Milli Məclis üzvlərində istehzalı gülüşə, həm də bütövlükdə cəmiyyətdə istehzaya, məsxərəyə məhkum olan populist bir çıxış idi.

Dünyada hər hansı proses, hadisə və s. baş verdiyi konkret şəraitin xarakterindən qaynaqlanır. Onun məzmunu və mahiyyətinə uyğun zaman, məkan, mənəvi, əxlaqi və s. ölçüləri var. Proses, hadisə və s. bu ölçülərin çərçivəsindən çıxarsa, bir mahiyyətdən başqa bir mahiyyətə keçmiş olur. Populizm də başqa olaylar kimi bu ümumi obyektiv qanunauyğunluğa tabedir.

Millət vəkili statusu daşıyan, rəsmən hakimiyyətyönlü siyasi partiyanın sədri, reallıqda isə hakimiyyətin tabeliyində olan adamın belə düşüncəsiz, savadsız, populist çıxışında Birinci vitse-prezidentə "sədaqət" elan edib, sonuncda onun şəxsiyyəti haqda xoş olmayan çıxışı, POPULİZMİN cəmiyyətdə hansı fəsadlara səbəb ola biləcəyini də əyani olaraq nümayiş etdirdi. Əgər bir nəfərin kiçik bir populist çıxışı onun özünü və müraciət etdiyi adamı çətin vəziyyətdə qoyursa, onda tariximizin öncəki dövrlərini nəzərə almasaq belə, son yüz ildə hakimiyyət yetkililərinin və onların məddahlarının cəmiyyətdə baş verən proses və hadisələri populizm baxımından izah, şərh etdiyini nəzərə alsaq, cəmiyyətimizin bu günə olan fəlakətli durumunun, məhz populizmdən öz məqsədlərinə çatmaq üçün bir vasitə olaraq istifadə edənlərin və bu populizmi həqiqət olaraq qəbul edən kütlənin günahlarının nəticəsi olduğunu dərk etmək olar.

Odur ki, bu kateqoriyaya mənsub olanların nəinki çıxışları, hətta qısa kəlmələri belə hadisə və prosesin nəinki əsl kökündən xəbər verir, əksinə, hətta kütlənin adi gözlə gördüyü reallığı belə sırf populist əsasla dəyərləndirməyi, ifadə etməyi tələb edir. Bu da bəzən "qaş qayırmaq əvəzinə, vurub gözü də çıxarmaqla", nəticələnir. Buna ən bariz misal olaraq millət vəkili Razi Nurullayevin bu yaxınlarda Milli Məclisdəki çıxışını göstərmək olar. R.Nurullayev bu çıxışında Respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya müraciətlə xeyli izhari-məhəbbətdən sonra, onun İKONA olduğunu söyləyir...

**Şapur QASİMİ**




# Artıq adam

**Xəstəxananın həyatinə xeyli adam toplaşmışdı. Qadınlar bir tərəfdə, kişilər başqa bir tərəfdə öz aralarında asta-asta xəstəxananın reanimasiya palatasında yatan xəstədən danışırdılar. Qadınlardan biri, deyəsən xəstənin anası idi, ortalığa "yazıq oğlum nə gün gördü ki?" deyə süni şəkildə ağlamısındı. Onun artistlik etdiyini, oğlunun halına ürəkdən yanmadığını təcrübəsiz insanlar belə, asanlıqla sezərdi.**

Bəzənib- düzənmiş, ətrafdakılara naz satmaqla məşğul olan qız, deyəsən bacısı idi, sanki anasına həm cavab, həm təskinlik, həm də özlərinə bəraət qazandırmaq kimi "gunah özündədir, az içərdi", deyə mızıldandı.

Digər bir cavan qadın sakitcə başını aşağı salıb, dərin xəyallara getmişdi. Üzündə dərin bir peşmançılıq hissi vardı. Sanki bu günədək etdklərinin yanlış olduğunu indi anlamışdı. Amma artıq çox gec idi. Sonrakı peşmançılıq heç vaxt fayda vermir. Bu qadın, deyəsən, xəstənin həyat yoldaşı idi. Yanında 7-10 yaşlarında iki oğlan uşağı dayanmadan göz yaşı axıdırdılar. Hamının başı söhbətə qarışdığından onlara təsəlli vermək heç kəsin yadına düşmürdü.

Digər yaxın-uzaq qohumlar da xəstədən daha çox onun ana-bacısının əziyyət çəkərək xəstəxanaya gəlmələrindən narahat olduqlarını ehyam vururdular.

Kişilərin qrupunda da buna uyğun söhbət gedirdi. Eynəkli, bahalı brend kostyum geyinmiş, gözündə optik eynək olan və kənardan da çox təkəbbürlü biri olduğu görünən, orta yaşlı birisi, deyəsən xəstənin böyük qardaşı idi, soyuqqanlılıqla "həyatı yanlış yaşamağın axırı budur" deyərək, sanki caniyə ədalətli cəza verməsi ilə fəxr edən bir hakim ədası ilə başını bir az da dik tutub, ətrafındakıların başı üzərindən uzaqlara baxırdı. Digərləri bunun hər sözünə "bəli, bəli, tamamilə düzdür" deməklə, sanki onun rəğbətini qazanmaqda yarışırdı.

Bir başqası, deyəsən xəstənin yaxın dostu idi, asta-asta "heyif, çox yaxşı bir oğlan idi" dedi və ətrafındakılara baxıb, sanki özünə tərəfdar axtarırmış kimi onun dediklərini təsdiq edəcək bir nəfərin olmasına ümid etdi. Amma nahaq, heç kəs onun fikrini bölüşmədi.

Deyəsən qonşuları olan basqa birisi, "Yaxşı oğlan narkotik qəbul etməz, içki düşkünü olmaz", deyərək, xəstənin dostunu susdurdu və bu azmış kimi, şübhəli gözlərlə baxıb, onu da töhmət altında buraxdı. Sanki, "sən də onlardansan", deyə hökm verdi. Xəstənin dostu qorxudan dərhal susdu və qələbəlikdən bir-iki addım aralandı...

Digərləri, xəstənin uzaqdan-yaxından qohumu olanlar isə səssizcə yuxarıdan gələn xəbəri səbrsizliklə gözlədiklərini ifadə edən bir vəziyyət almışdılar. Üzlərindən hiss olunurdu ki, əslində xəstəyə görə yox, xəstənin kifayət qədər varlı və vəzifəli qardaşına görə oraya gəlmişdilər. Yaxın qohumlarından biri ürəyində, "bu da nə ölən kimi ölür, nə də dirlən kimi dirilir" fikrini tez-tez təkrarlayırdı. Hər dəfə yuxarıdan, xəstənin yanından bir xəbər gətirən həyətə çıxan kimi dərhal onun ətrafına toplaşır, xəstənin vəziyyəti ilə bağlı sorğu-sual edirdilər. Əslində, onları xəstənin nə vaxt öləcəyi maraqlandırırdı. Xəstə yaşadıqca onlar "qızıl kimi vaxtlarını" boş keçirmələrindən narahat idilərg Məsələn, ticarətçi olan yaxın qohumlardan biri "gör nə qədər qazancdan qaldım" deyə, beynində ziyanını hesablayırdı. Başqa birisi məşuqəsi ilə görüşməyə tələsdiyindən, sanki xəstə ilə danışırmış kimi ürəyində, "əşi, ölursən öl, bizim də canımız qurtarsın, bütün işlərimi korlayırsan", - deyirdi.

Xəstənin bir neçə saatdan artıq yaşamayacağı xəbərini eşidib, tələm-tələsik özlərini qohumcanlı, canıyanan kimi göstərmək məqsədi ilə xəstəxanaya gələnlər onun hələ də yaşadığı xəbərini eşitdikcə, ürəklərində o söyüş qalmırdı ki, xəstənin unvanına söyməsinlər. Sanki qohumları onun ölməsi yaşamasından daha çox maraqlandırırdı. Hətta bəzi yaxın qohumlar bu adamın bu dünyada olduğundan elə bu gün xəbər tutmuşdu. Yəni xəstənin ölməsi, ya qalması yaxınlarını maraqlandırmırdı. Onları ancaq yas mərasiminin xərcləri, yasa başsağlığına gələn insanların dairəsi, veriləcək ehsanın menyusu daha çox düşündürürdü.

Hava buludlu idi, arabir çiskin yağış yağırdı. Elə bil buludlar yaxınları tərəfindən tərk edilmiş ömrünün çiçəklənən vaxtı bu dünya ilə vidalaşan gəncin halına yanır və onun üçün göz yaşı axıdırdı. Qohumlardan bəziləri yarım saat gözləyəndən sonra "deyəsən, bu teziklə ölməyəcək", - deyərək, hərəsi bir bəhanə ilə dağılışmağa başlamışdı. Bəziləri xəstənin böyük qardaşına yaltaqlıq edərək, zorla orada dayanmışdı. Amma ürəklərində ağır vəziyyətdə olan xəstəni hər cür söyüşlərə qonaq edirdilər. Bəziləri hətta gəncin ölmünü gözləmədən, onun gorunu söyməyə başlamışdı.



Camaatdan bir qədər aralı nimdaş paltarda arıq bir oğlan əllərini qoynuna qoyub, günahkar adamlar kimi başını aşağı salaraq, dərin fikirlərə qərq olmuşdu. Üzündən görünürdü ki, yuxarıda xəstə yatan adamla çox yaxın əlaqələri var. Əlində olsa onunla ölər, ya da onun yaşaması üçün hansı orqanı lazımdırsa, təmənnasız verərdi. Düzdür, kasıb bir oğlan idi, pulu yox idi, amma dağ kimi urəyi, damarlarında qanı, sağlam orqanları var idi. Bunlar da çox baha qiyməti olan şeylərdir.

Camaatdan bir qədər aralı nimdaş paltarda arıq bir oğlan əllərini qoynuna qoyub, günahkar adamlar kimi başını aşağı salaraq, dərin fikirlərə qərq olmuşdu. Üzündən görünürdü ki, yuxarıda xəstə yatan adamla çox yaxın əlaqələri var. Əlində olsa onunla ölər, ya da onun yaşaması üçün hansı orqanı lazımdırsa, təmənnasız verərdi. Düzdür, kasıb bir oğlan idi, pulu yox idi, amma dağ kimi urəyi, damarlarında qanı, sağlam orqanları var idi. Bunlar da çox baha qiyməti olan şeylərdir...

Nəhayət, həmin oğlan heç kəsin xəbəri olmadan müalicə həkiminin yanına qalxdı. "Həkim, mənim yaxın dostumdur, o, çox gözəl bir insandır. Onun yaşaması üçün nə lazımdırsa, mən hazıram. Hətta onun əvəzinə olməyə belə razıyam", - dedi və özünü ağlamaqdan saxlaya bilmədi.

Həkim bu gəncin nə qədər səmimi olduğunu öz təcrübəsindən bilirdi. Həm də onu təəccüb götürmüşdü: "Necə ola bilər ki, yad biri bu qədər canıyananlıq etsin, xəstənin yaşaması naminə hətta öz sağlamlığından imtina etsin, amma xəstənin yaxın qohumları ancaq onun nə vaxt öləcəyilə maraqlansınlar, qətiyyən xəstənin yaşaması qayğısına qalmasınlar".

Xəstə 30-35 yaşlarında idi. Həddən artıq arıqlamışdı, qabırğaları sayılırdı. Rəngi sapsarı idi. Qarnına su yığılmışdı, çətinliklə nəfəs alırdı. Huşu alaqaranlıq idi. Həkimlər xəstənin həkimə geç müraciət etdiyindən qara ciyər və böyrəklərin öz funksiyalarını itirdiyini deyirdilər. Xəstənin bu vəziyyətə düşməsinin səbəbi ağır vərəm və şəkər xəstəliyi ilə yanaşı, narkomaniya və alkoqolizmə qurşanması olmuşdu.

Əslində, alkoqolizm və narkomaniya sosial bir xəstəlikdir. Yəni cəmiyyət həyatında həyatını düz qurmayanların və ya sosial maneələri dəf etmək gücündə olmayanların düşdüyü bir bataqlıq idi. Xüsusən ailə və dövlət vaxtında belə vəziyyətdə olanlara yardım əli uzatmayanda, demək olar ki, hamı üçün son eyni olur: şəxsiyyətin deqradasiyası və orqanik pozğunluqlar. Görünür, bu xəstənin də həyatı hamar olmamış, erkən yaşlarından həyat ona yanlız sərt üzünü göstərmiş, bu zaman kimsə ona kömək əli uzatmamışdı. Belə adamlar dəryada fırtınaya düşmüş qayığa bənzəyir. Onların sağ qalması yalnız bir möcüzə ola bilərdi.

Xəstə huşsuz vəziyyətdə küçədə təsadüfən aşkar edilib xəstəxanaya gətirildiyindən, onun keçmişi ilə bağlı ailə üzvləri heç bir kəlmə söz açmadığından, bu azmış kimi, xəstənin keçmişi ilə bağlı həkimin verdiyi suallara aqressiv münasibət göstərdiklərindən, həkim xəstə haqqında heç bir ciddi məlumata malik deyildi. İndi onun yaxın bir dostu, xəstə üçün həyatını qurban verməyə hazır olan biri həkimin əlinə göydəndüşmə oldu. Gəncin qolundan tutub otağına apardı. Kabinetində termosdan çay süzüb birini gəncin qabağına, birini də öz stolunün ustünə qoydu. Tərəddüdlə, "sən xəstənin keçmişi haqqında nəsə bilirsən, onun müalicə olunması həm də onun haqqında dəqiq bilgilərin olmasını tələb edir", - dedi. Xəstənin dostu bir neçə dəqiqəliyə susdu, gözlərindən keçmişə, o xoşbəxt günlərə getdiyi aydın görünürdü. Hətta bayaqdan kədərdən hər dəqiqə göz yaşı axıdan gəncin üzündə bir xoş təbəssüm göründü. Görünür, yadına olduqca xoş xatirələr düşmüşdü. Həkim oglana, "istəsən heç nə deməyə də bilərsən, heç ailə üzvləri də xəstə ilə bağlı heç bir məlumat vermədilər", - dedi. Cavan oğlan tez cavab verdi: "Yox, yox, əgər dediklərim bir saat da olsa dostumun ömrünü uzatmağa səbəb olacaqsa, saatlarla onun haqqında danışaram". Həkim, "onda buyur, səni dinləyirəm", - deyərək kreslosunda yerini rahatladı və maraqlı bir hekayə eşidəcəyinə əminlik ifadə edən bir görkəm aldı...

*(Ardı var)*

**AZAD**



Allahverdi Eminov

# Nəriman Həsənzadə və Klark qanunu

## (“Sevdiyim şairlər” silsiləsindən)

**Mən Xalq şairi Nəriman Həsənzadənin poeziyasının daimi oxucusuyam, hər dəfə oxuyanda yadıma məşhur Klark qanunu (adı ilə adlanır bu nəzəriyyə) düşür: İnsan o cümlədən, söz adamları yaşa dolduqca onlarda enerji azalır, bilik, infor-masiya zənginləşir. - Fikrin birinci tərəfi ilə razılaşmaq istəməzdim, apardığım müşahidələrə və qənaətlərə görə heç də belə deyil. Bunun da bir sıra səbəbləri vardır: İstedaddan qidalanan İlham, seksual enerji - “libido”, sublimasiya - yara-dıcılığın yüksəlişi. Şairə gəldikdə, coşğun həvəs, vəcdəgəlmə, poetik ehtiras mövzu “tapılanda” onun fiziki görümü və maddi təsirlərlə yanaşı şeir hasilə gəlir. İsveç psixoloqu Z.Freydə görə, sənətkar psixoloji əhvalında - xəyalpərvərliklə nevrotik ilğım arasında qalır, onu - şairi yaradıcılığa sövq təşkil edir, həyati müşahidələrdən gələn nəticələr şeiri yazdırır. Nəriman Həsənzadənin poeziyası bu baxımdan daima maraq doğurmuşdur. O, dəfələrlə bir, yaxud iki-üç şeir yazmışsa, on-on beş silsilə şeirlərini toplu halında çap etdirmişdir. Düzü, mən bu poetik nümunələr haqqında yazmaq istəmişəmsə... Onun “Ədəbiyyat qəzeti”ndə Qarabağ tarıdı, O Vətən tarı, bu Ağdam deyəndə, o Şuşa deyir” silsilə şeirləri Son (2024) yaradıcılığının məh-suludur. “Ulu Öndərə ilk görüşdə oxuduğum şeir” (1969) N.Həsənzadənin poetik kredosu kimi səslənir.**

***Bu eşqim, vüqarım, səndin, canım!***
***Ana çağırdığım Azərbaycanım!***
***Açıb qucağımı mehri - ülfətlə***
***Bağrıma basıram səni hörmətlə.***

Şair sonralar da Ulu Öndər Heydər Əliyevə şeirlər həsr etmişdir. Bu, onun poeziyasından qırmızı xətt kimi səslənmişdir...

Şair yuxarıda söylədiyim fikirləri sanki təsdiqləyir və “Şair, yenə yazır-sanmı?” sualını cavablandırır. Şeir yazanda dünyanın sirri ona agah olur: bəli poe-ziya belə bir möcüzənin daşıyıcısıdır, “yazan zaman agah olur bu dünyanın sirri mənə” pıçıldayır! Üzünü ulu Tanrıya tutur, axı, şeir payına şairə bəxş edən də o deyilmi?

***Soyumasın od nəfəsin,***
***Əvəzi yoxdur heç kəsin.***
***Ulu Tanrım çox görməsin***
***Öz sevdiyi şeiri mənə.***

Unutmayaq ki, şeir möcüzədir, kəşfdir, qafiyələnmiş qrammatik sözlər deyil. Ədəbiyyatşünas T.Eliot poeziya haqqında demişdir: “Şairin şüuru saysız - hesabsız hissləri, cümlələri, obrazları toplayan və mühafizə edən özümlü qabdır. Yeni bütövün formalaşması üçün zəruri olan bütün hissləri toplaşana qədər onlar bu qabda qərar tuturlar”.

Nəriman Həsənzadə üçün poeziya ilk misradan son sətrə qədər ruhdur, ruhun təzahürüdür, nəzəriyyələşdirmədən uzaqdır. Şairin poetik şüuru bütün təxəyyül qüvvəsilə onu zamanla üz-üzə qoyur və sosial - mənəvi münasibətlərə aydınlıq gə-tirir. Bu poetik sənət gerçəkliyə varan, olmuşları xatırladan metoddur, bu hissi şair şeir vasitəsilə həyata keçirir. Nəriman Həsənzadə xeyirxahı olmuş ədib Mir Cəlal Paşayevə və onun oğlu, akademik Arif Paşayevə iki şeir həsr etmişdir. “Mir Cəlal müəllimin xatirəsinə”də oxuyuruq:

***Şair, Mir Cəlalın isti nəfəsi,***
***Mənə Haqdan gələn bir ilham idi.***
***Mən ata görmədim, atam əvəzi***
***Həyatda yeganə bir arxam idi.***

Mir Cəlal görkəmli yazıçı olmaqla yanaşı, xeyirxah insan, pedaqoq idi. Pedaqoji Universitetdə mənə dərs demişdi, kurs rəhbərim olmuşdu. Mən bu böyük alimin, yazıçının nəsr yaradıcılığı haqqında bir neçə il



əvvəl “Mir Cəlalın poetikası” adlı 3 (üç) cildlik “trilogiya”mı (1080 səh.) çap etdirdim və ədəbi ictimaiyyət yaxşı qarşıladı. Demək istəyirəm, şair Nəriman Həsənzadə Mir Cəlal müəllimi yaddan çıxartmır, eləcə də böyük oğlu Arif Paşayevi. “Bizim qızlar” şeirini akademikin ad gününə həsr etmişdir. Şeirin sonunda şair deyir, olmuşları xatırladır və:

***Bizə bu uçuş xəyalı***
***Töhvə verən oğul da var, -***
***Bir ölkənin Ağsaqqalı,***
***O getdiyi haq yol da var, -***
***O yol Tanrının düz yolu,***
***Arifdi,***
***Mir Cəlal oğlu!***

Nəriman Həsənzadə təsvir etdiyi hadisələrdə: predmetlərdə, ithaf etdiyi şəxslərdə poetik obrazlarını görür, duyur və idrak edir. Şair “Həyatın bir anı”nı ya-şayır: Hava püsələyir, otaq isti olsa da şair üşüyür, bu “üşümə” fiziki soyuqluq deyil, şairin şeirə köklənməsidir. Bu soyuqluğu böyük müğənnimiz Arif Babayevin məlahətli səsi isidir.

***Əvəzi yox, səsindəki məlahətin,***
***Haqdan gələn sərvətidir bu millətin.***
***Sevinc xanım sevincindən aşıb - daşır,***
***Yerdə sular, göydə quşlar pıçıldaşır.***

Şair həyatın bir anını beləcə yaşayır, bu həyatın içində musiqi də səslənir, necə ki, xalq artisti Mənsum İbrahimov “havalanıb oxuyur, səsi bənövşə qoxuyur”. “Elçin, yerə qoyma, əlindən tarı, Elnurun kamanı göynədən tarı” -

***Qarabağ tarıdı, o Vətən tarı,***
***Bu Ağdam deyəndə, o, Şuşa deyir.***

Şeir kədərin, qüssənin yaratdığı hisslərə biganə qalmır, şairin canlı təsvirilə müşahidə olunur. Nəriman Həsənzadə belə bir hissləri yaşamışdır: “Abidə”, “İllər, talelər” şeirlərində:

***Kürdəmirdə bir igid***
***şəhid oldu davada.***
***Kürdəmirdə bir qızın***
***Göyə qalxdı naləsi.***
***Möcüzələr yaratmış***
***Sən demə, bu dünyada,-***
***misalmı?***
***Yadigarın***
***Yadigar Abidəsi!***

Şairin “İllər, talelər” şeiri məni çox uzaqlara apardı: ötən əsrin 80-90-cı illərinə “Azərbaycan müəllimi” qəzetində çalışırdım, redaksiyaya filologiya elm-ləri doktoru, professor Sadıq Şükürov Gəncə Pedaqoji İnstitutdan tez-tez baş çəkir, analitik məqalələr verirdi, xüsusilə, Mirzə Cəlil və Səməd Vurğunun yaradıcılığı haqqında çap olunanın səhərisi Gəncədən şöbəyə zəng atır, təşəkkürünü çatdırırdı. Son dərəcə səmimi insandı, şöbənin telefonu ilə Nəriman Həsənzadə ilə danışır və görüşürdülər. Sadıq Şükürov məhsuldar alim olmaqla bərabər, təvazökardı. Nəri-man Həsənzadə ilə Gəncədən tanış idilər və şair barədə kitab da yazmışdı. Onun ölümü ağır itkiydi, gərəkli insan həyatdan köçəndən sonra qədrini bilirik:

***Niyə sağlığında yad olur bizə,***
***Görmürük o boyda bir istedadı?***
***Elə ki getdilər -***
***Çıxırlar üzə,***
***Yüksək kürsülərdən çəkilir adı.***
***Niyə yuxudadı, şöhrət tanrısı,***
***Niyə qarışdırır ağı sarıya?***
***Niyə o kəslərin oğlu, ya qızı***
***Xəlvətdə fəxr edir -***
***Atalarıyla?!***

Şair dostunu unutmur, xatırlayır. Hər bir söz, fikir adamının yaşadığı həyatda özündən sonra iz qoymaq istəyi əbədidir. Hər bir söz, fikir adamının həyata, dünyaya baxışı fərqlidir, seçimlidir. Eləcə də yaşayan insanın dünyasını dəyişəni xatırlaması.

***Sadıq Şükürovu xatırlayıram,***
***Təmiz insan idi, alim adıyla.***
***Onun sinəsində qaynar bir ilham.***
***Daim məşğuluydu tədqiqatıyla.***

Nəriman Həsənzadə ötən illərə, taleləri həsədlə xatırlayır:

***İllər var, səsləyir bizi arxadan,***
***İllər təzələnir arada, ancaq -***
***Alim var, hörmətlə keçdim yanından.***
***Mən qibtə elədim, bu ada ancaq.***

Poeziya bədii fikrin subyekti olan insana münasibətində əxlaqi meyarı əsas götürür - baxmayaraq bu, mütləq deyil, varlığın gerçəkliyini poetikləşdirir, insan-ların obrazlarını yaradır, bu, şair duyğusunun həssaslığıdır, azadlığıdır. Nəriman Həsənzadə şeirlərinin bir qismini tanıdığı, şəxsiyyətlərinə hörmət bəslədiyi şəxs-lərə ithaf etmişdir. Bu sırada Amil müəllimə, Elşad müəllimə, Rahilə Soltan qızına, Arif Paşayevə və oğlu Nazimə!

Bu insanlar şairlə ünsiyyətdə olmuşlar, fikir mübadiləsi aparmışlar, yaşadığı həyatın ona təsir qüvvəsindən asılı olaraq həqiqətləri təhrif etməmiş, təsvirində naturallıqdan çıxarmışdır, insan davranışının bütövlüyünü təmin etmişdi, onların obrazını yaratmaqla şair duyğusunun həssaslığını bir daha əyaniləşdirmişdir. “Zi-yarət yolu” şeirini əczaçı Elşad Hacıyevə həsr etmiş, onun peşəsini, şəxsiyyətini, ailəsini şeirə gətirmişdir:

***Bakıda bir yol var, Ziyarət yolu,***
***orda da bir evin bir darvazası.***
***Dərmanlar düzəldir bir vətən oğlu -***
***dilində daim xeyir - duası.***

“Deyin, əl saxlasın tarixi yazan” şeirini şair “Zəfər dastanı” əsərinin müəllifi Rəhilə xanıma ithaf etmişdir.

Nəriman Həsənzadə yeganə alim oğlu Nazimə unikal şeir həsr etmişdir. Şeirdə ata - şairin Almaniyada infarktdan xəstə yatarkən keçirdiyi - yaşadığı hisslərin oyatdığı təəssürat oxucuda oğul məhəbbətini əyaniləşdirir. Hər bir oxu-cunu: Ata və oğul sevgisi, tənhalıq xiffəti düşündürür. Bax, bu məqamlarda atanın oğul üçün yaşantısı necə də səmimidir, ibrətlidir:

***Arada görürdüm, sən birtəhərsən,***
***Ürəyim gəlmirdi, düzü, soruşam.***
***Mən səndən qorxurdum,***
***Xəstələnərsən,***
***Sən məndən qorxurdun, dözəmməz atan.***

Bax, belə ağır anlarda da dostlar dadına yetişir: Şair Simak Şeyda, Qaraxan, Gəncə yazıçılarından birisi. Bu adamların yoluxması xəstə üçün ən böyük təsəlli olur! Və ata nəsihəti:

***Yaxşı insanlara yaxın ol, müdam,***
***Ünvanı çaşdırma ünvan içində.***
***Bəzən mən özüm də səndən danmıram,***
***İnsan axtarmışam insan içində.***

Şair Nəriman Həsənzadənin poeziyası son dərəcə polifonikdir, çoxqatlıdır. Çün, poeziya həqiqətlərin və yalanların emosional - intellektual yaranışıdır, şairin fərdi - özəl üslubunun təzahürüdür. Poeziya duyğuların qeyri - qrammatik qanun-larla bədii ifadəsidir. Hər bir şeir daxili çırpıntıların çuğlaşmasından qopduğu üçün oxucu əhvalına baş vurur. Nəriman Həsənzadənin poeziyası təsviri ilə, ahəngiylə, dinamikliyilə oxucu şüuruna təsir göstərir, cəmiyyətə nüfuz etməklə ictimai rəyi sürətləndirir, duyğuların simvolik tərənnümünü canlandırır.

**P.S. Nəriman Həsənzadə şeirinin yaş həddi yoxdur, ona görə ki, ilhamla da-xili potensial enerji sönməzdir, güclü təkana malikdir, zəngin müşahidədən qidala-nır. Bu prosesdə Klark qanunu öz gücünü itirir.**

# Qarabağ veteranından Birinci vitse-prezidentə müraciət




## Nəsib Kərinli evinə işıq sayğacı qoyulmamasından şikayətçidir

**Sumqayıt Yaşıldərə yeni yaşayış massivində yaşayan, Qarbağ veteranı Kərimli Nəsib Nəriman oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Birinci vitse-prezident Mehriban Əliyevaya müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

**"Hörmətli Mehriban xanım!**

Sumqayıt Yaşıldərə ərazisində 6 sotda sənədli və kupçalı evimiz var. Həmin həyətdə 85 yaşlı anam və qardaşımın yoldaşı Kərimova Leyla və oğlu yaşayır. Hansı ki, onun oğlu idmançı kimi dəfələrlə vətəndən kənarda Azərbaycan bayrağını qaldırmışdır.

25 noyabrda işıq çəkdirmək üçün aidiyyəti quruma müraciət etdik. 5 dekabrda bildiriş gəldi ki, sayğac qoymaq üçün 160 manat ödəniş edin.

Mən 7 dekabrda ödəniş etməyə getdim, Səfərov Səbuhi adlı əməkdaş (11 rayona baxan kurator) bildirdi ki, həmin 160 manatı ödəmək olmaz, çünki ananla yaşadığı evin arakəsməsi yoxdur. Onun üçün ödəniş etməyimə icazə vermədi.

Səbuhi Səfərov və digər Rüstəm adlı əməkdaşlar düşündülər ki, yəqin mən onlara rüşvət verməliyəm. Mən rüşvət vermədiyimə, görə bəhanəsi oldu ki, ananla yaşadığın həyətdə iki evin arakəsməsi yoxdur. Səbuhinin gözünü pul örtüb, ona görə də bizə zülmlər edir. Özü Sumqayıt şəhərində, dəniz kənarında "Mirvari Sity" MTK-dan ev alıb. Görən hansı pulla, hansı maaşla?!

Cənab Ali Baş Komandan dəfələrlə deyib ki, mənə siqnal verin. Bu da siqnal. Səbuhinin yetərincə qeyri-qanuni işləri var. Boş torpağa kod açırlar, sonra həmin sayöaclar başqa yaşayış olan evlərə satılır. Budurmu haqq-ədalət ? Mənim imkanım yoxdur ki, arakəsmə edəm. Səbuhi yığdığı puldan mənə 1 maşın daş, 10 kisə sement alıb versin, arakəsmə edim. Vətən üçün candan keçən oğlana bir maşın daş alıb vermək onun üçün heç nədir.

Səbuhi Səfərov informasiya şöbəsinin rəisidir. Bu işin onun daşıdığı vəzifəyə heç bir aidiyyəti yoxdur. Səbuhiyə bu işləri görməyi kim tapşırıb? İşıq idarəsində savadlı energetik yoxdur ki, komputerlərə baxan evlərə baxış keçirir?

**Hörmətli Mehriban xanım!**

Belə vəzifəli şəxslər bu dövlətə, işıq idarəsinə ləkədir və əlavə edim ki, Səbuhi 11 rayona və sayı bilinməyən kəndlərə necə rəhbərlik edir. Belə insanlar şərəfli kresloda oturmalı deyil. Çünki bizim kimi vətəndaşlara qan uddururlar.

Xahiş edirəm, mənim işığımın çəkilməsi üçün köməklik göstərəsiniz".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Şəki sakini hakimin qərarına etiraz edir

## Aydın Hümmətov ona ədalətsiz olaraq 8 min manat cərimə, 3 il iş kəsildiyini iddia edir

**Şəki rayonu, Aşağı Daşağıl kənd sakini Hümmətov Aydın Yadigar oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə müraciət ünvanlayıb. Onun müraciətini olduğu kimi dərc edirik:**

**"Cənab Prezident!**

Yazıb Sizə bildirmək istəyirəm ki, 2023-cü ilin iyul ayında Şəki rayonu, Çapağan kəndində sahədən tay yığıb, asfalt yola tərəf gələn vaxt qarşıdan 2107 markalı (utilzasiya olunacaq) maşın çıxdı. O, mən traktorla öz yolumda olarkən maşını oynadıb, traktoru və qoşqunu keçərək, 25 metr məsafədə olan ağaca girmişdir.

Mənim heç bir günahım olmadığı halda qohum-qardaşı tökülərək maşından toyuq-cücəni düşürmüş, sonra polis gələrək bizi narkoloji şöbəyə aparmış, heç birimizin içkili olmadığı müəyyən olunmuşdur.

Maşının sürücüsü Yevlax şəhərinin sakini olan Asif adlı şəxs idi. Qəza zamanı maşında onun anası da olmuş, lakin ona heç bir xətər toxunmadığı halda, məhkəmə onun yalançı şahidlərini dindirərək, mənə 8 000 manat cərimə və 3 il iş kəsmişdir.




Onu da bildirim ki, onun anası həmin vaxt deyil, başqa vaxt xəsarət almış, onun da xəsarətini mənim üzərimə yazmışlar.

**Cənab Prezident!**

Yazaraq bildirirəm ki, mən ailəliyəm. 4 övladım var. Ovladlarımdan biri anadangəlmə ruhi xəstədir. Mən özüm də 2-ci qrup əliləm. Ailədə heç kim işləmir. Anam xəstə olduğu vaxt "Kapital Bank"dan 15 min manat kredit almışam. Bu günə kimi də kredit ödəyirəm. Təəssüf ki, anam xəstəlikdən vəfat etdi.

Mən çarəsiz, övladı ruhi xəstə, ailə vəziyyəti dözülməz bir vəziyyətdə yaşayan Azərbaycan vətəndaşıyam. Sizdən mənə qarşı ədalətsizliyə son qoyulmasına, qanunsuz olaraq yazılan 8 000 manat cərimənin silinməsinə və mənə verilən 3 il həbs cəzasının ləğv edilməsinə köməklik göstərməyinizi xahiş edirəm.

Əvvəlcədən Sizə minnətdarlığımı bildirirəm".

**Aynurə MUSTAFAYEVA**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**



# Lənkəranın bərbad yolları...

**Lənkəranda son vaxtlar insanları ən çox narahat edən, gediş-gəliş üçün yararsız hala düşən yollardır. Asfaltı dağılmış, bərbad hala düşmüş, üstü çuxurlu, palçığı dizə qalxan yollar illərdir ki, rayonda aidiyyəti qurumları heç də düşündürmür. Əsasən bu problemin müşkülə düşməsi yerli məmurların verdiyi yalan vədlər, əhaliyə göstərdikləri biganəlikdir.**

Rəsmilər Lənkəranda bütün yolların rahatlığını deyirlər. Qaldı ki, görən dağa nə bələdçilik. Rayonda çox kənd yollarında artıq hərəkət etmək təhlükəlidir. Kərgəlan kəndin yolu daha acınacaqlı vəziyyətədir. Bir balaca yağış yağanda mövcud olan gölməçələr dolur, yol keçilməz olur. Payızın palçığı, yayın toz-torpağı isə yola çıxanları pis günə qoyur. Çala- çuxurlarda nəqliyyat vasitələri tez sıradan çıxır. Ümumiyyətlə, yol heç cür günün tələblərinə cavab vermir, onun təmirinə ciddi ehtiyac vardır. Kənddə yaranmış problemdən əlaqədar təşkilatların da yaxşı xəbərləri vardır. Di gəl ki, iş görülmür.

Lənkəranda yol sıradan bəxti gətirməyən bir kənddə Xanbulandır. Kənddə işlək yolda sürüşmə hadisəsi baş verib, hazırda yol yarasız hala düşüb. Qəzaların burada baş verməsi hər an labüddür. Daha dəqiq desək, yağışlı havada avtomobillərin idarəetməni itirməsi və arzuolunmaz qəzaların baş vermə ehtimalı çoxdur. Amma yolu qaydaya salmaq aidiyyəti qurumları heç narahat etmir. Rayonda Şilavar kənd camaatı da yoldan narazıdır. Deyirlər ki, "18-ci məhəllə" adlanan ərazidə avtomobillərin hərəkət etməsi mümkün deyil. Buna səbəb məhəllədən keçən yolu kəndin əsas yoluna birləşdirən hissədə bərənin olmasıdır. Yağıntılı günlərdə bu ərazidə piyadaların hərəkəti üçün də çətinlik yaranır. Dəfələrə bərəyə yıxılma halları da olub.

Lənkəran şəhərin özündə olan bərbad küçələr artıq sayını itirib. Şəhidlər Xiyabanı 46/18 ünvanında yerləşən küçə yollarında son vaxtlar yaranan çuxurlara yağış suları dolur, nəticədə nəqliyyat və piyadaların hərəkəti çətinləşir. Heydər Əliyev küçəsi, Kiçik Bazar məscidinin yanındakı dördmərtəbəli binanın yerləşdiyi yollar dağılıb, amma təmir olunmur. Sayı bilinməyən çuxurlar istər yağışlı, istərsə isti günlərdə həmişə gediş-gəliş üçün problemdir. Şəhərdə dağılıb yararsız hala düşən küçələrdən biri Məmməd Səid Ordubadinin adınadır.

Yerli sakinlər söz düşəndə bildirirlər ki, bizim Prezidentimiz olduqca müdrik, öz xalqını sevən, gecə-gündüz onların xoş güzəranı naminə çalışan bir rəhbərdir. Amma yerli məmurlar xalqı tamam unudub, özündən başqa heç kimi düşünmür. Nəticədə rayonda həlli vacib olan sosial məsələlər getgedən qalaqlanır. Bunlardan ən əsası isə illərlə yolların təmirsiz qalmasıdır...

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**